

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İSTİQLAL - bir hilal, bir ulduz və üç rəng



12


# SƏS

№ 206 (6889)

8 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik


## Dirçələn və inkişaf edən
# AZAD ŞUŞA!




2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya səfər ediblər

## Vaşinqtonun "düşmən" bəllədiklərinə yönələn
# USAİD NİZƏSİ




7

## YAP-ın təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" intellektual oyununun final mərhələsinin mükafatlandırma mərasimi keçirilib



6

## Qərbin "demokratiya" ixracı



15

## Koronavirus tam olaraq bitib?



11

## Tarixən Eçmiədzin kilsəsi regionda pozucu rol oynayıb



9

## Dalğası hünər, qeyrət, şəhid qanı BAYRAĞIM...



13

# Dirçələn və inkişaf edən AZAD ŞUŞA!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya səfər ediblər

**Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar.**

Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər. Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya gəliblər. Dövlətimizin başçısı və birinci xanım Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Qeyd edildi ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış oldular. Dövlətimizin başçısına və birinci xanıma tarixi abidə barədə məlumat verildi.












Bildirildi ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi "Xeyriyyə cəmiyyəti" tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa Marinski qız məktəbi adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895-1896-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa Marinski qız məktəbi qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə Şuşada iki şəxsi qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı.

Qeyd edildi ki, bina sovet dövründə internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçiriblər.

*Ardı Səh. 3*

Əvvəli səh. 2

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, peşə məktəbi və kollec Şuşanın tarixi Hamamqabağı, Seyidli və Culfalar məhəllələrində yerləşir. Sovet dövründə həmin ərazidə keçmiş kənd təsərrüfatı texnikumu və onun yataqxanası yerləşirdi. Həmin ərazidə peşə məktəbi də tikilmişdi. Prezident İlham Əliyev peşə məktəbinin və kollecin ərazisinə baxıb, tapşırıq və tövsiyələrini verib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmçinin Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə də tanış olublar, eyni zamanda Şuşada İsa bulağında olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçiriblər. Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri ilk dövrlərdə Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırılırdı. Sonrakı dövrdə şəhər sadəcə Qala adlandırılıb. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə Şuşa adlandırıb. Şuşa qalasının üç əsas qapısı var idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün Baş planlarında qeyd edilir. Şəhər işğaldan azad edildikdən dərhal sonra tarixi Şuşa qalasında bərpa işləri görülüb. Qala üzərindəki Şuşa yazısı bərpa edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada

# Dirçələn və inkişaf edən AZAD ŞUŞA!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya səfər ediblər


















"Yasəmən" otelinin açılışında iştirak ediblər. Dövlətimizin başçısına və birinci xanıma oteldə yaradılan şərait barədə məlumat verildi.

İşğaldan azad edilən ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə Heydər Əliyev Fondu da öz töhfəsini verməkdədir. Qədim Qarabağ torpağında Fond tərəfindən dini, tarixi-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına start verilib. Heydər Əliyev Fondunun Qarabağdakı layihələri Ağdam Cümə məscidi, Zəngilan şəhər məscidi, Şuşada Aşağı Gövhər Ağa məscidi, Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və bulağı, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Şuşada Yaradıcılıq Mərkəzi, Üzeyir Hacıbəylinin ev-muzeyi və digər tarixi-mədəni abidələrin bərpa və yenidən qurulmasını, Şuşada yeni məscidin inşasını əhatə edir. Tarixi Zəfərimizin növbəti ildönümü ərəfəsində Şuşada bərpası başa çatan və təqdim edilən layihələrdən biri də "Yasəmən" otelidir.

Bildirildi ki, XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binası işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınıb. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başlayıb. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, divarlarda daxili bərkitmə işləri aparılıb. Mərmi düşməsi nəticəsində binanın dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb.

Fond tərəfindən bərpa edilən binalar hazırda otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" otelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Otel "double", "twin" və "junior" otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar otelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Otellə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Mehmandarovlar malikanə kompleksinin yuxarı hissəsində bərpa olunacaq binalar barədə də məlumat verildi.

Dövlətimizin başçısı və birinci xanım otelin həyətində yasəmən ağacı əkdilər.

Şuşa işğaldan azad edildikdən sonra şəhərdə qısa müddətdə "Qarabağ", "Xarıbülbül" otelləri, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı olub və artıq "Yasəmən" oteli də şəhərin tarixi mənzərəsinə daha bir gözəllik qatmaqla qonaqların istifadəsinə verilir.






# Dövlət Statistika Komitəsində 8 Noyabr - Zəfər Gününə həsr olunan tədbir keçirilib



Noyabrın 7-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Öncə 44 günlük Vətən müharibəsində canından keçən qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən iştirakçılar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, şanlı Azərbaycan Ordusunun rəşadəti nəticəsində ərazi bütövlüyümüzün bərpa olunduğunu qeyd edərək, Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyini, xalqımızın "dəmir yumruq" ətrafında sıx birləşdiyini vurğulayıblar. Bildiriblər ki, 44 günlük haqq mübarizəsində tarix yazan şanlı Ordumuz, qəhrəman əsgər və zabitlərimiz güclü dövlət və güclü ordu strategiyasını, milli birlik, həmrəylik və güclü iradə vəhdətini bütün dünyaya nümayiş etdirib. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işlərinə diqqət çəkərək Prezident İlham Əliyevin yürütdüyü uğurlu Böyük Qayıdış proqramı nəticəsində öz evlərini tərk etmiş, doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki ata-baba yurdlarına qayıdışının önəmini də nəzərə çatdırıblar.

Eyni zamanda 2023-cü il sentyabrın 19-20-də Azərbaycanın apardığı lokal antiterror tədbirləri nəticəsində suverenliyini də tam bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdığı, 2023-cü ilin oktyabrın 15-nin daha bir şərəfli gün kimi tarixə düşdüyü, Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdığı, nəticədə, İkinci Qarabağ müharibəsinin son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycanın tarixinə yazıldığı qeyd olunub.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr olunmuş film nümayiş etdirilib və Dövlət Statistika Komitəsində çalışan Vətən müharibəsi iştirakçılarına hədiyyələr verilib.

Daha sonra "Dövlət qulluqçularının təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 22 iyun tarixli 3938 nömrəli Sərəncamına əsasən dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş Dövlət Statistika Komitəsinin bir qrup əməkdaşına "Dövlət qulluğunda fərqlənməyə görə" medalının təqdim olunma mərasimi keçirilmişdir. Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov dövlət qulluqçularını yüksək dövlət təltifi münasibətilə təbrik etmiş, onlara çətin və şərəfli işlərində, gələcək fəaliyyətlərində uğurlar arzulamışdır





# Dövrümüzün ən mütərəqqi Konstitusiyası- Ana qanunumuz

Bu gün Zəfər qazanmış Azərbaycan 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu günü ilk milli Konstitusiyamızın qəbul edilməsinin 28-ci ildönümünü qeyd edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik". Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

**CƏMİYYƏTİN VƏ FİRAVANLIĞIN, AZADLIĞIN VƏ TƏHLÜKƏSİZLİYİNİN BƏRQƏRAR EDİLMƏSİ**

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, millimənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının




təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

Bu gün Azərbaycan qalib ölkə kimi dünyada tanınır. Vətən müharibəsi Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim həmin ərazilərdə dalğalanacaq. 44 gün davam etmiş Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra Azərbaycan Konstitusiyasının tələblər və müddəaları yerinə yetirilib. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq" - deyə Prezident bildirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı bundan sonra da tarixi nailiyyətlər əldə edəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Zəfər Günü: yalnız O bacardı



*Bəhruz Quliyev,*
*"SƏS" qəzetinin baş redaktoru*

Bəli, Zəfər Gününü İlham Əliyev tarixə yazdı, Qələbə Paradın ilk dəfə O keçirdi... Onun komandanlığı ilə Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında əldə etdiyi parlaq Qələbə tarixi torpaqlarımızı düz 30 il sonra bizə qovuşdurdu, suverenliyimizin təmin olunmasına yol açdı. 3 il bundan öncə, 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bu sənəd tarixə Üçtərəfli Bəyanat kimi düşdü. Bəyanata əsasən noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən Azərbaycan Ordusunun tam nəzarəti altına keçdi. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan Azərbaycanın hərbi və siyasi diplomatiyası qarşısında diz çökdü.

Proseslərin davamı isə bu ilin sentyabrında birgünlük lokal xarakterli antiterror tədbirləri ilə gəldi və bu da bütövlükdə "Qarabağ problemi"nin birdəfəlik bağlanmasına səbəb oldu. Nəticədə ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Vətən müharibəsindən sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı oldu və məntiqi sonluğuna çatdı. Bütün təzyiqlərə və hədələrə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək Xankəndidə Azərbaycanın Dövlət Bayrağını səmalara ucaltdı.

Həmin 44 gün...

Bir az əvvələ qayıdaq, yəni 3 il bundan qabaq nələrin baş verdiyinə. Müharibənin birinci günü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutduğunu, nəticədə mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu bəyan etdi. Dövlətimizin başçısı müraciətində Azərbaycan Ordusunun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və Ermənistan silahlı qüvvələrinin xeyli sayda hərbi texnikasının və canlı qüvvəsinin məhv edildiyini bildirdi. Saat 15 radələrində dövlətimizin başçısının sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və Prezident İlham Əliyev aidiyyəti qurumlara verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını bəyan etdi: "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Uğurlu əks-həmlə əməliyyatının ilk saatlarından düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yaran Azərbaycan Ordusu günortadan sonra Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etdi. Prezidentin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı qətiyyətlə bəyan etdi: "Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq".

Bəli, "Dəmir yumruq" əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bu xoş müjdəni tvitter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı kəndin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı.

Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Hadrut qəsəbəsini düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin "məğlubedilməzlik" mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Bundan iki gün sonra - oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü. Güclü Azərbaycan Ordumuzun qəhraman əsgər və zabitləri oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Bu əməliyyatın ən böyük əhəmiyyətindən biri də Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun nəzarətə götürülməsi idi.

Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi qədim Şuşa şəhəri idi. Qəhrəman ordumuzun əsgər və zabitlərimiz ən çətin əməliyyat olan Şuşaya Qarabağın sıx meşələrində onlarla kilometr uzunluğunda yeni yol açaraq ən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq bu şəhəri işğaldan azad etdi. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım qayalarına dırmaşaraq, yaralı döyüş yoldaşlarını çiyinlərində daşıyaraq bir neçə istiqamətdən şəhərə daxil oldular. İşğaldan azad edilmiş Daşaltı kəndindəki hərbi bölmələrin atəş dəstəyi ilə Azərbaycan Ordusunun dağ piyadaları qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı.



Tarixi Qələbə Günü, Zəfər sevinci...

Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev xalqımızın otuz ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq... Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Bu günlər çoxəsrlik tariximizin ən parlaq səhifələrindən olan Zəfərimizin üçüncü ildönümünü sonsuz qürur və fəxarət hissi ilə qeyd edirik. Vətən müharibəsinin davam etdiyi 44 gündə 30 ilin işğalına son qoymaq böyük səylərin, qətiyyətin, bir sözlə, müstəqil siyasətin nəticəsidir. Təbii ki, müstəqillik yalnız atributları ilə ölçülmür. Müstəqillik müstəqil siyasət yürütmək, hər bir məsələyə yanaşmada ədalətə və beynəlxalq hüquqa əsaslanan mövqe ortaya qoymaqdır. Azərbaycan hər addımında müstəqil siyasət yürütdüyünü təsdiqləyir və dünyaya bu çağırışı edir ki, dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq əsasdır və onun tətbiqi prosesində vahid mexanizm müəyyənləşib həyata keçirilməlidir. Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfəri ilə 30 ildə etdiyi bu kimi çağırışları reallıqda təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti, qətiyyətli Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti sayəsində Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbə dünənimizə baxış, perspektivlərin müəyyənləşdirilməsində stimulverici amil oldu.

Xilaskar...

Ata vəsiyyətini yerinə yetirən İlham Əliyev Dahi şəxsiyyət Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları reallaşdırdı, xalqın arzularını gerçəkləşdirərək torpaqlarımızın xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdı. İlham Əliyev 20 illik Prezidentliyi dövrünün 17 ilini torpaqlarımızın azad olunması məqsədilə hazırlıq işlərinə yönəltdi, ordumuzu Qələbəyə hazırladı, diplomatik cəbhədə üstünlüyümüzü təmin etmək üçün ən yüksək tribunalardan haqq səsimizi dünyaya çatdırdı. 17 ildə görülən işlər, atılan qətiyyətli addımlar dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 8 noyabr tarixində "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" reallığını fəxrlə, qürurla bəyan etməsi ilə nəticələndi.

Ölkəmizə rəhbərlik etdiyi 20 ildə Prezident İlham Əliyevin hər bir bəyanatı reallıqda, Azərbaycan dövlətinin dəyişməz mövqeyində öz əksini tapıb. Bu gün hər bir vətəndaşımız fəxrlə, qürurla bəyan edir ki, əgər ulu öndər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin xilaskarıdırsa, Onun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində möhtəşəm Zəfərimizin memarıdır. İlham Əliyev son 200 yüz illik tariximizdə milli gücümüzün maddi-fiziki və mənəvi komponentlərinin elə bir vəhdətini yarada bildi ki, bu sözün əsl mənasında qarşısıalınmaz selə çevirildi. XXI əsrin çoxkomponentli hibrid müharibələrinə qarşı savaşmaq və qalib gəlmək yalnız bu şəkildə mümkün ola bilərdi. Biz istər 2003-cü ildən 2020-ci ilədək davam edən hücüm diplomatiyası, alt qatlarda sirli qalan strateji sükut dövründə, istər hərbi sənayemizin təşkili ilə birlikdə ordumuzun şəxsi heyətinin peşəkarlardan komplektləşdirilməsi mərhrələsində, istər 44 günlük müharibə dövründə və ondan sonra davam edən postmüharibə və böyük qayıdış mərhələsində, hər addımda Prezident İlham Əliyevin imzasını görürük. Ona görə də qələbəmizin qalıcı və əbədi olması üçün milli həmrəyliyimizə sadiq qalmalı, dəmir yumruq ətrafında daha sıx birləşməliyik.

# YAP-ın təşkilatçılığı ilə “Nə? Harada? Nə zaman?” intellektual oyununun final mərhələsinin mükafatlandırma mərasimi keçirilib










***Noyabrın 7-də ”Gülüstan” sarayında Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən ”Nə? Harada? Nə zaman?” intellektual oyununun final mərhələsinin mükafatlandırma mərasimi keçirilib.***

Əvvəlcə tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ”Nə? Harada? Nə zaman?” intellektual oyununun nəticələri barədə hesabat verib. O bildirib ki, intellektual oyunun əsas məqsədi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar silsilə tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən YAP üzvü və bitərəf gənclər arasında şəbəkələşmənin dərinləşdirilməsi, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında gənclərin bilik səviyyəsinin artırılması və gənclərin intellektual inkişafının, komanda ruhunda işləmək bacarıqlarının təşviqi olub.

Qeyd edilib ki, ”Azərbaycan İntellektual Klublar Assosiasiyası” İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində YAP-ın yerli təşkilatlarını və Gənclər Birliyini təmsil edən 85 komandanın iştirakı ilə keçirilən intellektual oyunun seçmə mərhələsi üzrə yarışlar Bakı, Xaçmaz, Qəbələ, Gəncə, Ağcabədi, Cəlilabad, Kürdəmir və Naxçıvanda təşkil olunub. Seçmə mərhələsinin nəticəsinə uyğun olaraq 22 komanda finala vəsiqə qazanıb, komandalardan birində oyunun Əsasnaməsi ilə müəyyən edilmiş qaydaların pozulması aşkar edildiyindən final mərhələsindən kənarlaşdırılıb. Nəticədə final mərhələsi 21 komandanın iştirakı ilə baş tutub.

B.İslamov diqqətə çatdırıb ki, 85 komandanın tərkibində iştirak edən 680 nəfərin 217-si bitərəf, 463-ü isə YAP-ın üzvü olan gənclərdir. ”Final mərhələsində iştirakçılara 3 tur üzrə 45 sual ünvanlanmış və qalib komandalar müəyyənləşmişdir”. Tədbirdə I, II, III yerləri tutmuş Səbail, Hacıqabul və Nərimanov komandalarının oyunçuları müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə, qalib komanda isə əlavə olaraq kubokla təltif olunub.

III yerin qalibi - Nərimanov komandasını YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, II yerin qalibi - Hacıqabul komandasını YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə, I yerin qalibi - Səbail komandasını isə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu yarışma gənclərimizin intellektual inkişafı, onların şəbəkələşməsi, dostluq əlaqələrinin qurulması və müasir tariximizdə baş verən hadisələrin daha dərindən öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. O, intellektual yarışmada iştirak edən bütün gəncləri, xüsusilə qalibləri təbrik edərək vurğulayıb ki, bu yarışa qatılan hər bir gənc özünü qalib hesab edə bilər. Tahir



Budaqov diqqətə çatdırıb ki, belə intellektual yarışlarda təmsil olunmaq Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə olan inamın ifadəsidir.

YAP Sədrinin müavini bildirib ki, bu gün Azərbaycan Heydər Əliyev ideyalarından və Ümummilli Liderin zəngin dövlətçilik irsindən bəhrələnərək möhtəşəm uğurlara imza atır. Ölkəmizin beynəlxalq aləmdə mövqeyi davamlı olaraq möhkəmlənir. Artıq regionda və dünyada söz sahibinə çevrilən Azərbaycan Respublikası Prezident İlham Əliyevin liderliyi ilə Türk dünyasının inkişafına da öz töhfələrini verir: ”Təbii ki, müasir dövlətçilik tariximizin zirvə hadisəsi üçüncü ildönümünü qeyd etdiyimiz şanlı Zəfərdir. Rəşadətli ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan torpaqlarımızı azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyünü bərpa etdi, milli qürur və ləyaqətimizi özümüzə qaytardı. Şanlı Zəfər dövlətçilik tariximizin ən şərəfli və möhtəşəm hadisəsidir”.

YAP Mərkəzi Aparatının rəhbəri gəncləri hər zaman Heydər Əliyev ideyalarına sadiq olmağa və Prezident İlham Əliyevin ətrafında sıx birləşməyə çağırıb. T.Budaqov 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə ”Şərəf” ordeni ilə təltif edilmiş Əli Həsənova və Azərbaycan Respublikasının ictimai-siyasi həyatında və elmi-pedaqoji sahədə uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilmiş Sudeif İmamverdiyevə ordenləri təqdim edib.

Göstərilən diqqətə və fəaliyyətinə verilən qiymətə görə dövlət başçısına təşəkkürünü bildirən Əli Həsənov Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən Heydər Əliyev ideyalarına daim sadiq olduğunu diqqətə çatdırıb. Əli Həsənov bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. O, Ümummilli Liderin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişaf etdiyini söyləyib. Qeyd edib ki, torpaqlarımızın işğaldan azad olunması, suverenliyimizin təmin edilməsi ilə Prezident İlham Əliyev güclü sərkərdə kimi tarixə öz möhürünü vurub.

Əli Həsənov Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra ardıcıl və məqsədyönlü işlər görüldüyünü diqqətə çatdırıb: ”VII Qurultaydan sonra partiyanın həyatında keyfiyyətcə yeni



mərhələ başlayıb. Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq həyata keçirilən tədbirlər mühüm nəticələrin və diqqətəlayiq uğurların qazanılmasını, YAP-ın beynəlxalq müstəvidə nüfuzunun artmasını şərtləndirib”.

S.İmamverdiyev də çıxışında bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısında misilsiz xidmətlər göstərdiyini qeyd edib. O bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinin xilaskarı, müasir Azərbaycanın banisi kimi xalqımızın qəlbində daim yaşayacaq. S.İmamverdiyev Heydər Əliyevin liderliyi ilə yaradılmış Yeni Azərbaycan Partiyasının tarixi xidmətlərini də diqqətə çatdırıb. O, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən təltif olunmasını həyatının ən mühüm hadisələrindən biri kimi dəyərləndirib. S.İmamverdiyev gənclərə müstəqil Azərbaycanın gələcəyi naminə Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin siyasətinə sadiq olmağı tövsiyə edib.

Daha sonra mərasimdə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, partiyanın Mərkəzi Aparatı öz fəaliyyətini Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri, həmçinin yeni dövrün çağırışları əsasında qurur və bu istiqamətdə mühüm addımlar atılır. ”Partiyamızın VII Qurultayından sonra bir sıra norma-



tiv-hüquqi sənədlər, yeni Nizamnamə və Proqram qəbul olunub və digər tədbirlər görülüb. Bütün bunlar Yeni Azərbaycan Partiyasının daha çevik və mütəşəkkil fəaliyyəti üçün zəmin yaradır. Sevindirici haldır ki, gənclər də partiyamıza axın edir, öz gələcək fəaliyyətlərini Prezident İlham Əliyevin lideri olduğu Yeni Azərbaycan Partiyası ilə bağlayırlar”,- deyən Tahir Budaqov vurğulayıb ki, yeniliklərdən biri də Yeni Azərbaycan Partiyasının Himninin hazırlanmasıdır. YAP Sədrinin müavini partiyanın Himninin hazırlanmasında əməyi olan hər kəsə təşəkkürünü bildirib. Qeyd edilib ki, Himnin sözlərinin müəllifi Azərbaycan Yazıçılar Birliyinin üzvü, ”Şöhrət” ordeni laureatı, Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, musiqisinin müəllifi isə Xalq artisti, ”Şöhrət” ordeni laureatı, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, bəstəkar Faiq Sücəddinovdur.

Çıxış edən Azərbaycan Yazıçılar Birliyinin üzvü, ”Şöhrət” ordeni laureatı, Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu hazırda xalqımızın tarixi günlər yaşadığını bildirib. Diqqətə çatdırıb ki, xalqımız Zəfər bayramının təntənəsini yaşamaqdadır. İndiyədək mindən çox əsər yazdığını deyən Baba Vəziroğlu onların sırasında Ulu Öndər Heydər Əliyevə və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə həsr olunmuş əsərlərin əhəmiyyətini xüsusi vurğulayıb.

Xalq artisti, ”Şöhrət” ordeni laureatı, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, bəstəkar Faiq Sücəddinov da Yeni Azərbaycan Partiyasının Himninin ərsəyə gətirilməsinin önəmindən bəhs edib. O bildirib ki, partiyanın qurucusu Heydər Əliyev və hazırda lideri olan Prezident İlham Əliyev Azərbaycan xalqının taleyində əvəzolunmaz rol oynayan tarixi şəxsiyyətlərdir.

Sonra Yeni Azərbaycan Partiyasının Himninin təqdimatı olub. Himni Opera və balet teatrının Xor kollektivinin müşayiəti, Zülfiyyə İbrahimovanın drijorluğu ilə Xalq artisti, Prezident mükafatçısı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Samir Cəfərov ifa edib. Sonda Himnin hazırlanmasında və səsləndirilməsində əməyi olan şəxslərə Yeni Azərbaycan Partiyasının xatirə hədiyyələri təqdim olunub.

# Vaşinqtonun "düşmən" bəllədiklərinə yönələn

# USAİD NİZƏSİ

**USAİD adı ilə məşhur olan United States Agency İnternational Development çevriliş planlarında adı hallanan ABŞ Beynəlxalq İnkişaf Agentliyidir. Onun adının məhz çevriliş planlarında hallanması heç də yenilik deyil və hazırkı dövrə qədər bu barədə kifayət qədər informasiyalar yayılıb. Heç də sirr deyil ki, görünən və görünməyən olmaqla, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin iki üzü var. Demokratiya, insan haqlarına dəstək, sahibkarlıqdan tutmuş, səhiyyə sisteminə qədər bir çox sektorlara yardım fonunda ABŞ Beynəlxalq İnkişaf Agentliyinin görünən üzünün altında, dövlətin daxili işlərinə qarışmaq, siyasi proseslərə müdaxilə etmək, çevriliş hazırlıqları və ssenariləri kimi görünməyən üzü gizlədilir.**

Hansısa bir ölkədə ABŞ hakimiyyəti çevriliş həyata keçirmək niyyətinə düşürsə, özünün Mərkəzi Kəşfiyyat İdarəsinin qolu olaraq yaradılan USAİD tərəfindən "qrant layihələri" hesabına toplayaraq, hazırladığı şəbəkə həmin ölkədə dərhal aktivləşdirilir. Yəni, bir sözlə, elə həmin şəbəkə məhz USAİD tərəfindən aktivləşdirilir və biz bunun son "nümunəsini" Gürcüstanda baş verənlərin fonunda da müşahidə etmiş olduq. "CİA USAİD-dən komuflyaj kimi istifadə edir", başlıqlı məqaləsində Amerikalı araşdırmaçı jurnalist Eva Golinger, Mərkəzi Kəşfiyyat İdarəsinin məxfi sənədlərinə istinadən yazır ki, əsas məqsəd casus şəbəkəsinin qurulması, hədəf coğrafiyası da Latın Amerikası, Asiya və Yaxın Şərq olub. Məsələ burasındadır ki, hədəf çoğrafiyası daha geniş imiş, hansı ki, bununla bağlı çoxsaylı məlumatlar var.

Qanlı Feniks əməliyyatı kimi tarixə düşən əməliyyat, Vyetnam müharibəsi zamanı məhz ABŞ Beynəlxalq İnkişaf Agentliyinin iştirakı ilə həyata keçirilib. Bir çox ölkələrdə çevrilişə cəhddə, məsələn, Uruqvay, Haiti, Kuba, Venesuela kimi ölkələrdə çevriliş cəhdlərində, eləcə də Afrika ölkələrində hakimiyyət dəyişikliklərinin həyata keçirilməsində sözügedən agentliyin iştirakı olub. Gürcüstanda 2003-cü ildə "qızılgül inqlabı", Ukraynada 2004-cü ildə "narıncı inqlab", Qırğısıstanda da 2005-ci ildə "zanbaq inqlabı" və bir çox belə inqlablar, çevriliş planları məhz ABŞ Beynəlxalq İnkişaf Agentliyinin, USAİD-in iştirakı ilə yadda qalıb. Yəni, müşahidə edilənlər onu deməyə əsas verir ki, çevriliş planlarının maliyyələşməsini də, təşkilini də ABŞ kəşfiyyatı məhz USAİD vasitəsilə edib.

"Uruqvayda sol hərəkatının məhv edilməsi üçün USAİD polis qüvvələri hazırlayırdı və eləcə də onlara işgəncə yollarını öyrədirdi", deyə bildirən Kanadadan olan jurnalist Jan-Gay Allard USAİD-in çirkin işinin ən bariz nümunələrindən birinin Uruqvayda olduğunu vurğulayıb. ABŞ-ın çevriliş planlarına dair bir neçə kitabın müəllifi olan həmin kanadalı jurnalist USAİD barədə kifayət qədər məlumatlı biri kimi tanınır, amma o bu barədə bilən yeganə jurnalist deyil. Qeyd etdiyimiz kimi, Mərkəzi Kəşfiyyat İdarəsinin məxfi sənədlərinə istinad edən amerikalı jurnalist Eva Golinger də yetərincə məlumatlı biri hesab olunur. O yazır ki, fəaliyyət göstərdiyi ölkələrdə incəsənət sektoru, dini təşkilatlar, özəl təşkilatlar, hətta dövlət orqanları və ümumilikdə bütün sahələr üzrə şəbəkələşmə quran USAİD lazım olan məqamda ABŞ-ın çevriliş planlarında iştirak edir və bu planları dəstəkləyir. "USAİD-in "nizəsi" Vaşinqtona "düşmən" hesab olunan hərəkat və ya dövlətlərə qarşı yönəlib", deyən amerikalı jurnalist Golinger açıq şəkildə bildirir ki, USAİD artıq hərbi agentliyə çevrilib. Onun sözlərindən belə aydın olur ki, ABŞ özünün istədiyi siyasəti yürütməyən, rəsmi Vaşinqtonun deyil, milli maraqlarını, dövlətçilik maraqlarını əsas tutan və bu maraqlardan çıxış edənləri məhz "düşmən" bəlləyir və elə USAİD vasitəsilə də hədəfə alır.

Heç də sirr deyil ki, USAİD "nizəsi" artıq illərdir ölkəmizə qarşı tuşlanıb. Sözsüz ki, hədəf də ilk növbədə Azərbaycan hakimiyyətidir, çünki bu hakimiyyətin milli maraqları əsas tutan, dövlət maraqlarına istinad edən müstəqil siyasət aparması USAİD üçün heç də qəbuledilən olmayıb. Təbii ki, milli və dövlət maraqlarını əsas tutan belə bir mövqedən çəkindirilə bilməyən hakimiyyət USAİD üçün hədəf hesab olunacaqdı və məhz USAİD "nizəsi"nin Azərbaycana tuşlanması da bu baxımdan gözlənilən idi. Doğrudur, hələ 1991-ci ildə Azərbaycanda yenicə fəaliyyətə başladığı zaman USAİD barədə özləri tərəfindən müsbət imic formalaşdırılmışdı və "demokratiya gətirənlər" kimi özlərini sırımışdılar. Lakin qısa bir zaman fasiləsində bu təşkilatın niyyətinin çirkin olduğu, məqsədinin ölkədə xaos və gərginlik yaratmaq olduğu ortaya çıxdı. Bəlli oldu ki, bundan sonra da USAİD öz çirkin əməllərindən qalmayıb və müxalif media eləcə də təşkilatların 2014-cü ildə maliyyələşdirilməsi ilə şəbəkələşməyə başlanılan zaman bu prosesdə öndə yenə USAİD idi. Özünün 2,4 milyon dollarlıq qrant layihəsinin məhz öz şəbəkəsinə çatması üçün gizli maliyyələşmə mexanizmi tətbiq edən USAİD dırnaqarası "qalib olan" təşkilatlara, şəbəkələr formalaşdırmaq, müxtəlif bəhanələrlə gərginlik yaratmaq, bununla da Azərbaycan hakimiyyətinə qarşı təzyiq vasitələri hazırlamağı tapşırmışdı. Amma həmin o gizli maliyyələşməsi, eləcə də fəaliyyətinin qeyri-şəffaf olduğu ifşa olunan USAİD bundan sonra ölkəmizdə iki istiqamətdə öz işini aparmağa başlayıb. Beləki, birinci növbədə diqqət regional layihələrə ayrılıb ki, burada nə düşüb. Azərbaycana təsir edə bilməyənlərin buna görə də regiona məhz Ermənistan üzərindən müdaxilə etməyə çalışmaları da başadüşüləndir. "Demokratiyanın Parlaq Nöqtələrini Anlamaq və Dəstəkləmək" adı altında ABŞ-ın bu ilin mart ayında açıqladığı sənəd və bu sənədin maliyyələşdirilməsindən tutmuş, icrasına, reallaşdırılmasına qədər USAİD-ə həvalə edilməsi müxtəlif regionlarda "rəngli inqilab" ssenarilərinin yenidən ortaya atıldığını göstərir. Guya Dağlıq Qarabağdakı vəziyyətdən çox narahat olan, qondarma və dırnaqarası "ərzaq təhlükəsizliyi" və "dərman çatışmazlığı" barədə Twitter vasitəsilə "çıxış" edən, Agentliyin rəhbəri Samanta Pauerin erməni lobbisinə yaxınlığı, qondarma "erməni soyqırımı abidəsi"ni ziyarət edəcək həddə ermənipərəst olması




USAİD müstəqil siyasət aparmaqdan imtina etməyə məcbur edə bilmədiyi milli hakimiyyəti hədəfə alıb. USAİD-in hədəfinin təkcə Azərbaycan hakimiyyəti yox, həm də Qarabağın işğalını legitimləşdirmək olması da onun mahiyyətini açıb ortaya qoyur və bəlli olur ki, bu təşkilat üçün demokratiya, insan azadlığı və bunun kimi ali dəyərlər heç də maraqlı deyil. Əks halda, işğala məruz qalan Azərbaycan dövlətinin və xalqının haqlarını, hüquqlarını müdafiə edərdi, amma biz bunu müşahidə etmədik.

Lazımi anda hərəkətə keçirmək üçün gənclərin təşkilatlandırılması, müxalif media, eləcə də təşkilatların maliyyələşdirilməsi və siyasi qüvvələrə maliyyənin bu ad altında ötürülməsi, həmçinin regionlarda müxtəlif layihələrin icrası ilə "icmalaşma" adı altında şəbəkənin qurulması USAİD-in Azərbaycanda konkret fəaliyyət istiqamətləri olub. Bu şəbəkəni ifşa edən 2013-cü ildə paytaxt Bakıda "facebook inqilabı" adlandırılan qarşıdurmanın yaradılması cəhdi oldu. Bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxarıb bəzi QHT-lərə və konkret şəxslərə paylayan ABŞ Milli Demokratiya İnstitutunun Bakıdakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevs payladığı vəsaitin müqabilində paytaxtın düz mərkəzində xaos yaradılmasını təşkil etmək üçün ciddi cəhd etmiş, lakin cəhdi baş tutmamışdı. Amma da məqsəd paytaxda ifşa olunmuş fəaliyyətin bölgələrdən başlayaraq, yenidən həyata keçirilməsi və "icmalaşma" adı altında şəbəkənin fəaliyyətinin genişləndirilməsi olub. İkinci isə, maliyyə axınının istiqamətinin dəyişdirilməsi ilə gizlin əməliyyat aparmaq niyyəti idi və bunun üçün də özlərinə bağı olan təşkilatlara maliyyəni ötürmək üçün USAİD qonşu Gürcüstandan istifadə edirdi, amma bu da tez bir zamanda ifşa olundu. Onların çirkin niyyətləri baş tutmadı, çünki milli maraqlara söykənən siyasəti ilə və xalqın dəstəyilə Azərbaycan dövləti ölkəmizə qarşı bu cəhdlərin reallaşmasına imkan vermədi.

Məhz 44 günlük müharibədən sonra, 2020-ci ilin sonlarından etibarən bölgədə yeni reallıqlar yaradan, bu ilin 20 sentyabr tarixində də Qarabağda həyata keçirilən 24 saatlıq antiterror tədbirlərindən sonra bu reallıqlar tamamlayan Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin təminatı üçün əsaslı zəmin, şərait formalaşdırıb və bunun sayəsində də Türkiyə və Rusiya kimi region ölkələrinin bölgəyə marağı daha da artıb. Belə bir vəziyyət isə görünür, Qərb üçün heç də arzuolunan hesab edilmir deyə, regiona hansısa yolla daxil olmaq üzərində "baş sındırılır". Daha dəqiq desək, yenə də ABŞ regiona daxil olmaq niyyətini belə məhz hansısa "əyri" yollarla gerçəkləşdirmək niyyəti- USAİD "nizəsinin" yenidən Azərbaycana doğru çevrilməsi riskindən xəbər verir.

Azərbaycanın da daxil olduğu müxtəlif ölkələrdə 2023-2025-ci illər ərzində "vətəndaş cəmiyyəti" quruculuğuna USAİD-in 10 milyard dollar civarında vəsait ayırması heç də təsadüfi sayıla bilməz. Bu qədər maliyyə vəsaitinin səbəbsiz yerə ayrıldığını düşünmək sadəlövhlük olardı. USAİD-in digər ölkələrlə yanaşı, məhz Azərbaycanda da milli təhlükəsizliyə qarşı fəaliyyət göstərəcəyi, xaos yaratmaq üçün əvvəlcədən planlar qurması nəinki mümkün hesab olunur, hətta bunun əksi düşünülmür. Heç şübhəsiz ki, USAİD "nizəsinin" hədəfi demokratiya, insan haqları deyil. Rəhbəri ermənipərəst Samanta Pauer olan USAİD-in hədəfində ölkəmizin qazandığı qələbə, Zəfərdir. Ermənidən betər erməni olan kəslərin rəhbərlik etdiyi təşkilatın xalqımızın qələbəsini həzm etmədiyi, buna görə də planlarının pozulduğu bəllidir və biz qələbələrimizin sayını artıqmaqla, ölkəmizə tuşlanmış həmin nizəni sındırmış və USAİD-in çirkin planlarını həmişə olduğu kimi pozmuş oluruq. Ona görə də, bizi qələbələrə aparan həmrəyliyimiz və ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyevin ətrafında birləşməyimiz, birliyimiz ən vacib şərt hesab olunur.

***İnam Hacıyev***

# Azərbaycan İlham Əliyevlə

## Rusiyanın "Kommersant" nəşri Azərbaycanın son 20 ildə necə dəyişdiyindən yazıb

Azərbaycanın müstəqillik qazandığı ilk gündən indiyədək qazandığı uğurlar barəsində təkcə ölkəmizdə deyil, o cümlədən xarici statistiklərin də araşdırma apardığı bəllidir. Rəqəmlərin dili ilə danışan həmin mərkəzlər ilk gündən bu günümüzə qədər baş verənləri müxtəlif təqdimatlarla ortaya qoyurlar. Təqdir edənlər də var, qısqanclıqla yanaşanlar da az deyil. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlməsinə qədər Azərbaycan qazandıqlarından on qat artığını itirmək üzrə idi. Xalq Cümhuriyyətinin varisi Azərbaycanın müstəqilliyini qəbul etməyən mərkəzlər, düşmən qüvvələr, beynəlxalq təşkilatlar Ermənistan adlı qondarma dövləti üzərimizə salmaqla, Qarabağ bəhanəsi ilə bizə qarşı müharibə başlatmaqla əslində bizi bir dövlət olaraq yox etməyə çalışırdılar. O vaxt hakimiyyətdə olanların əksəriyyəti bu reallığı, beynəlxalq münasibətlərdəki aşınmaları görmür, ya da görmək istəmirdilər. Təhlükəni görə bilməyənlər, təbii ki, ona qarşı tədbir görmək, özünü müdafiə etmək kimi ən adi instinklərə malik olmurlar. Təhlükə isə hər an bir az da bizə doğru yaxınlaşırdı.



Hadisələrin sonrakı gedişi bir daha sübut edəcəkdi ki, hakimiyyətə gəlmək Heydər Əliyevin məqsədi deyildi, bu, bir missiya idi, xilaskarlıq missiyası. Vətənini canından artıq sevən İNSAN onu hakimiyyətə dəvət edənləri qırmadı və dövlət sükanının arxasına keçərək onu təhlükəli yollardan ən az itki ilə çıxarmağı bacardı. Hələ SSRİ dövründə əsasını qoyduğu dövlətçiliyi daha da möhkəmləndirdi və onu əmin əllərə təslim edərək missiyasını bitirdi.






Bu gün dünya mediası, araşdırmaçılar müasir və müstəqil Azərbaycan dövlətinin 2003-cü il oktyabrın 31-dən bəri İlham Əliyev tərəfindən idarə olunmasından yazır, statistik rəqəmlər təqdim edirlər. Bütün araşdırma yazılarının bir ana xətti var, Heydər Əliyevin və onun siyasi varisi İlham Əliyevin əsası qoyulan və inkişaf etdirilən dövlətçiliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yer tutmasıdır. Rusiyanın "Kommersant" nəşri də İlham Əliyevin Azərbaycan Prezidenti vəzifəsinin icrasına başladığı gündən indiyədək iqtisadiyyatda, sosial sahədə, siyasətdə, hərbi sahədə, cəmiyyətdaxili münasibətlərin yeni çağırışlara uyğun formalaşmasında rolu barədə maraqlı məqalə dərc edib. Yazıda qeyd olunur ki, "bəzi ekspertlər İlham Əliyevi keçid fiquru adlandırsalar da, onun hakimiyyəti 20 ildir davam edir. Bu müddət ərzində ölkənin necə dəyişdiyi infoqrafikada tam aydınlığı ilə görünür".




Nəşr əlavə edir ki, 2022-ci ilin sonunda Azərbaycanın ÜDM-i 78,7 milyard dollar olub, İlham Əliyevin dövründə bu rəqəm 11 dəfəyə yaxın artıb. Bu, keçmiş SSRİ respublikaları üçün rekord göstəricidir. Yüngül azalma yalnız pandemiya dövründə və 2015-2016-cı illərdə neft qiymətlərinin və ölkə daxilində tikinti sürətinin aşağı düşdüyü zaman baş verib. Qonşu ölkələrdə ÜDM daha yavaş artıb. Eyni dövrdə Gürcüstanda altı dəfə, Rusiyada beş dəfə, İran və Türkiyədə üç dəfə artıb.

İqtisadi artım əsasən yanacaq-energetika kompleksinin hesabına təmin edilir. XX əsrin əvvəllərində Bakı dünyanın neft paytaxtı adlanırdı, lakin inqilabdan sonra sənayedə kəskin tənəzzül baş verdi. İntibah ilk andiçmə mərasimində çıxışında neft strategiyasını "iqtisadiyyatın əsas istiqaməti" adlandıran İlham Əliyevin dövründə baş verdi.

1994-cü ilin sentyabrında Heydər Əliyev xarici şirkətlərlə "əsrin müqaviləsi" - Xəzər dənizində üç neft yatağının birgə işlənməsi haqqında saziş bağladı. Amma üç yataqdan ikisindən ilk neft İlham Əliyevin prezidentliyi dövründə gəlib. 2003-cü ildə neft gəlirləri büdcə gəlirlərinin təxminən üçdə birini, 2023-cü ildə isə ən azı yarısını (ilin sonunda bütün gəlirlərin 53%-i gözlənilir) gətirib. 2006-cı ildən "Şahdəniz" qaz yatağının da işlənməsinə başlanılıb.

Əvvəlcə neft kəmərləri Azərbaycanla MDB ölkələri: Gürcüstan və Rusiyanı birləşdirdi. Bakı-Novorossiysk neft kəmərinin gücü 7 milyon ton üçün nəzərdə tutulub. Amma son illərdə onun yükü 3 milyon tonu keçmir (bunun 2 milyon tonu Azərbaycan nefti deyil, Qazaxıstan neftidir). İlham Əliyevin dövründə ölkə Türkiyə üzərindən marşrutlar qurdu və tədarükləri Aİ ölkələrinə yönləndirdi. Avropalılar yeni layihələri dəstəklədilər, çünki tədarükün şaxələndirilməsini Aİ siyasətinin əsas məqsədlərindən biri hesab edirdilər.

Hazırda Azərbaycanın ən böyük ticarət tərəfdaşları İtaliya, Türkiyə, Rusiya, Çin və Hindistandır. İlham Əliyevin dövründə ilk üçlük dəyişməz qalıb, Rusiya və Türkiyə isə orada yerlərini dəyişib. 2003-cü ilin sonunda Rusiya ilə ticarət dövriyyəsi bütün ticarət dövriyyəsinin təxminən 11%-ni, Türkiyə ilə ticarət dövriyyəsi isə 7%-ni, 2022-ci ilin sonunda isə əksini təşkil edib.

Rusiyaya qarşı sanksiyalar və paralel idxal səbəbindən vəziyyət dəyişə bilər. Təkcə 2022-ci ildə Azərbaycan ərazisindən Rusiyaya malların tranziti təxminən 2,5 dəfə, bütün ticarət dövriyyəsi isə təqribən 24 faiz artıb. Ölkədə neft sənayesi ilə yanaşı, turizm də inkişaf edir. 2006-2022-ci illərdə turizm agentliklərinin sayı 66%, işçilərin sayı isə 159% artıb. 2022-ci ildə turizm sənayesinin ölkənin ÜDM-də payı təxminən 3 faiz təşkil edib.

İlham Əliyevin dövründə işsizlik 9,2 faizdən 5,5 faizə enib. Ümumilikdə ölkədə 1 milyon 960 minə yaxın yeni iş yeri açılıb. Azərbaycan statistika xidmətinin hesablamalarına görə, minimum əmək haqqı 9 manatdan (təxminən 600 rubl) 345 manata (demək olar ki, 19 min rubl), orta pensiya 17,7 manatdan (təxminən 1,2 min rubl) 372,1 manata (təxminən 1,2 min rubl) yüksəlib. 20,5 min rubl).

Azərbaycanın əhalisi 10,2 milyon nəfərdir və İlham Əliyevin dövründə 24 faizə yaxın artıb. Azərbaycandan daimi yaşamaq üçün başqa ölkələrə səfərlər azalıb (2003-cü ildə 3,8 min nəfər, 2022-ci ildə 1,1 min nəfər). Həmçinin İlham Əliyevin prezidentliyi dövründə doğum nisbətində artım müşahidə olunub - 2011-ci ildə 176 minə yaxın körpə doğulub. Oxşar göstəricilər ölkədə yalnız 1964 və 1985-1992-ci illərdə qeydə alınıb.

İlham Əliyevin dövründə ölkədə korrupsiyaya qarşı mübarizə kampaniyasına start verilib. 2004-cü ildən onlar "Korrupsiyaya qarşı mübarizə haqqında" ayrıca qanun, bir sıra plan və dövlət proqramları qəbul etmiş, vətəndaşlara yardım göstərmək üçün "ASAN xidmət" üzrə korrupsiyaya qarşı mübarizə komitəsi və mərkəzləri təşkil etmişlər. Dizaynlarına görə, onlar kiçik rüşvətlərin qarşısını alırlar. 2003-cü ildə rüşvətxorluq bütün cəzaların 0,1%-ni, 2022-ci ildə 1,1%-ni təşkil edib.

1990-cı illərin əvvəllərində Bakı ermənilərin də yaşadığı Qarabağa, onun keçmiş muxtar vilayətinə nəzarəti itirdi. Etirazlar, sonra isə hərbi əməliyyatlar nəticəsində həmin ərazilər ERmənistan tərəfindən işğal edildi. İlham Əliyev ilk andiçmə nitqində qonşusunu "təcavüzkar dövlət" adlandırdı. İki hərbi kampaniya (2020-ci ildə 44 gün və 2023-cü ildə 1 gün) sayəsində Azərbaycan Qarabağ üzərində tam nəzarəti bərpa etdi. Azərbaycan tərəfi israr etsə də ermənilərin çoxu bölgəni tərk etdi.

Azərbaycanın tikilməsində israrlı olduğu Bakıdan Naxçıvana, oradan da Ermənistanın Zəngəzur bölgəsi vasitəsilə Türkiyəyə uzanan dəhlizi məsələsi hələ də mübahisəli olaraq qalır.

***V.VƏLİYEV***

***P.S. Məqalədə "Kommersant"ın məlumatlarından istifadə edilib.***



# Tarixən Eçmiədzin kilsəsi regionda pozucu rol oynayıb

Bütün dövrlərdə və zamanlarda erməni terror təşkilatları azərbaycanlılara qarşı genişmiqyaslı terror aktları törətməklə minlərlə insanın həyatına son qoymuşlar. Bu vəhşi aktların törədilməsində erməni kilsələri də erməni terrorçu təşkilatlara yaxından dəstək olmuşlar. Misal olaraq Eçmiədzin kilsəsinin regionda oynadığı pozucu rolu göstərmək olar. Regionda bu kilsə azərbaycanlılara qarşı düşmən mövqe tutmuş "beşinci kolon" rolunu oynamışdır. XVII əsrin 60-cı illərindən başlayaraq Eçmiədzin kilsəsinin katolikosları daim Rusiya imperiyasına müraciət edərək Azərbaycan torpaqlarında erməni dövlətinin yaranmasına yardım etməyi xahiş edirdilər. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Kartli Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. Məkrli məqsədləri elə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar.

## İrəvan xanlığına hücumun təşkilində erməni kilsəsinin xüsusi rolu olmuşdur

1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra Irəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilməmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır.O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar,10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə, xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 mil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yeni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tutur.



## Azərbaycanın Qərbində yaradılan qüdrətli xanlıqlardan biri də Qarabağ xanlığı olmuşdur

18-ci əsrin ortalarında Azərbaycanın Qərbində yaradılan qüdrətli xanlıqlardan biri də Qarabağ xanlığı olmuşdur. 1748-ci ildə Pənahəli xan Cavanşir tərəfindən yaradılan Qarabağ xanlığı Kürlə Araz çayları arasında yerləşmiş, ətrafı sıldırım keçilməz qayalar, yaşıl meşələrlə əhatə olunmuşdur. Pənahəli xan Qarabağın gözoxşayan səfalı yerini mərkəz seçərək, orada Qarabağın qala qapısı hesab olunan Şuşa şəhərini Qarabağın paytaxtı olaraq inşa etdirirdi. Qarabağ xanlığının ərazisində də İrəvan xanlığının ərazisində olduğu kimi Cavanşir, Otuzdilər, Cəbirli, İyirmi dörd, Baharlı, Ziyadoğullar və bu kimi məhəllələrin tikilməsi və onların da idarə etməsini naiblər tərəfindən həyata keçirilməsi bu ərazilərdə türk adət-ənənələrinin və idarəetmə üsulunun dəyişməz olduğunu göstərir. 106 Qafqazda imperiyaiar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi Pənahəli xanda dərin zəka, yüksək idarəetmə qabiliyyətinin olması və hərbi bilikləri mükəmməl şəkildə mənimsəməsi Qarabağın siyasi, hərbi, iqtisadi qüdrətinin artmasına səbəb olmuşdur. O, müdrik siyasət yürüdərək qonşu dövlətlərlə dostluq əlaqələri qurmuşdur. Bununla yanaşı, xan düşmən hücumlarından ehtiyat edərək Qarabağı, xüsusi ilə də paytaxt Şuşa ərazisini qalalarla, istehkam sədlərlə möhkəmləndirmişdir. Məhz Pənahəli xanın göstərişi əsasında 1748-ci ildə Barat, 1751-ci ildə Şahbulaq, 1750-ci ildə isə Şuşa qalası inşa edilmişdir. Bu dəfə də ermənilər məkrli, satqın, xəyanətkar fəaliyyətlərini davam etdirməklə möhkəmlənməkdə olan Qarabağ xanlığına təhlükələr yaratmağa çalışırdılar. Ermənilərin satqınlığını, xəyanətini bağışlamayan Pənahəli xan onları cəzalandırmaq qərarına gəlir. Sarayda məclis quran Pənahəli xan satqın erməni məliklərini ora dəvət edir. Xan erməni məliklərinin xəyanətini sübut etdikdən sonra onlardan beşini şəxsən özü məhv edir, qalanlarını isə ömürlük həbsdə saxlanılması üçün Ərbədil xanına təhvil verir. Sarayda keçirilən məclisdə erməni məliklərini zərərsizləşdirməsindən sonra ətrafdakı ermənilər də Pənahəli xandan qorxmağa, onun əmrlərinə tabe olmağa başlamışlar. Məhz bundan sonra Pənahəli xan Qarabağın ərazilərini genişləndirir. Bunun da nəticəsində Pənahəli xan İrəvan, Gəncə, Naxçıvan və Ərdəbili Qarabağ xanlığına birləşdirə bilmişdir. Təbii ki, Qarabağın ərazisinin genişlənməsi fonunda xanlığın güclənməsi İran şahını ciddi narahat etmişdir.



## Hiyləgərliklə aradan götürülən Pənahəli xan

Məhz bu narahatlığı aradan qaldırmaq və xanlığı məhv etmək üçün 1757-ci ildə Məhəmmədhəsən xan Qacar Qarabağa hücum etmişdir. Tarixdə "Xatın arxı" kimi adı qeyd olunan ərazidə gedən döyüşlərdə Pənahəli xan böyük iştaha və iddialarla xanlığa hücum etmiş Məhəmməd xan Qacarı məğlub etmişdir. Bu döyüşdə Pənahəli xan şəxsi şücaət, yüksək döyüş nümunəsi göstərmişdir. Darmadağın edilən İran qoşununun tör-töküntüləri qaçarkən o dövr üçün çox əhəmiyyətli hesab olunan 150-yə yaxın tüfəngi, 5 ədəd isə topu döyüş meydanında qoyub qaçmışlar. Bu biabırçı məğlubiyyətdən sonra Məhəmməd xan Qacar Qarabağ xanını açıq döyüşdə məğlub etməyin mümkün olmadığını başa düşdüyündən Pənahəli xanı hiyləgərlik yolu ilə sıradan çıxartmağa cəhd göstərmiş və istəyinə də nail olmuşdur. Belə ki, Məhəmmədhəsən xan Qacardan sonra hakimiyyətə gələn Kərim xan Zənd Urmiyyə qalibiyyətini zəfər günü kimi qeyd etmək üçün "Şiraz qonaqlığı"na dəvət edir. Bu qonaqlıqda Pənahəli xan girov götürülür. Pənahəli xanın İran şahının hiyləgərliyinin qurbanı olmasından sonra Qarabağda hakimiyyət uğrunda mübarizə başlayır. Bu mübarizə daha çox İbrahimxəlil xan və Mehrəli bəy arasında gedir. Amansız döyüş İbrahim xanın Mehrəli bəyin üzərində qalibiyyəti ilə başa çatır. İbrahimxəlil xanın hakimiyyətdə olduğu 1763-1806-cı illəri Qarabağın inkişaf tərəqqi dövrü hesab etmək olar. Amma Qarabağın hərbi iqtisadi qüdrəti gürcü çarları ilə yanaşı, Rusiyaya ilan zəhəri verən erməni məliklərini də ciddi narahat etmişdir. Ona görə də, bu qüvvələr Qarabağa hücum təşkil etmək üçün birgə iş planı qururlar. Amma 1787-1795-ci illərdə Rusiya ilə Osmanlı imperiyası arasında müharibənin başlanması birləşmiş qüvvələrin Qarabağa planlaşdırılan hücumlarının qarşısını almışdır. Bununla da Qarabağ xanlığı inkişafını və hərbi qüdrətini artırmaqda davam etdirmişdir. Amma bir həqiqət var ki, məkrli düşmən heç zaman yatmır.

**İ.ƏLİYEV**

# "Nar" Bayraq Günü münasibətilə "Cümhuriyyət bayrağı" kitabını nəşr etdi

"Nar" tariximizin ən şanlı səhifələri olan Zəfər və Bayraq Günü münasibətilə xalqımızı təbrik edir və Zəfər Gününün üçrəngli nişanəsi olan bayrağımızın tarixindən bəhs edən "Cümhuriyyət bayrağı" kitabını nəşr edib. Bayraq günü münasibətilə çap olunan kitab Cümhuriyyət dövründən tutmuş, müzəffər ordumuzun Qarabağa bayrağımızı sancmasına qədərki tarixindən bəhs edir.




Milli mənliyimizi ifadə edən bayrağımızın müasir dövr ilə yanaşı, Cümhuriyyət və mühacirət illərinə aid mühüm fotoşəkillər və sənədlərinin də yer aldığı kitabın müəllifi məşhur araşdırmaçı-yazar Dilqəm Əhməddir. Həmçinin, kitaba olan marağı nəzərə alaraq, "Nar"ın sosial media səhifəsində müsabiqə keçirilir: Bayrağımızın 105-ci ildönümü münasibətilə təqdim olunan suallara cavab verən sosial şəbəkə istifadəçilərinə "Nar" "Cümhuriyyət Bayrağı" kitabını hədiyyə edir.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Dövlətçiliyimizin və suverenliyimizin rəmzi

*Prezident İlham Əliyev: "Bizim bayrağımız canımızdır, ürəyimizdir"*

Ucadan uca üçrəngli Azərbaycan bayrağı. Qürurlu, əzəmətli Azərbaycan Bayrağı. Hər zaman vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalanan Azərbaycan bayrağına bu gün vətən torpağının hər bir yeri bürünüb. Bu bayraq müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvoludur. Uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçib. Bu bayrağı belə qüdrətli edən, dalğalandıran Azərbaycan xalqın Böyük Lideri, Prezidenti var. Bayraq bir dövlətin, millətin şərəf və ləyaqətinin ifadəsi milli suverenliyin simvolu, qürur mənbəyidir. Bayrağımız Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağını yüksək qiymətləndirərək "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" - deyə bildirmişdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir".

Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı.

### "GƏRƏK HƏR BİR EVDƏ AZƏRBAYCAN BAYRAĞI OLSUN, HƏR BİR AİLƏ AZƏRBAYCAN BAYRAĞINA İTAƏT ETSİN"



Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağımızın yenidən ölkəmizin müstəqillik rəmzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən biridir. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üç rəngli bayrağı ikinci dəfə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə Azərbaycan Bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Düz 71 il sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən zəkası və əzmi ilə Naxçıvanda dalğalandırıldı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu.

1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

Dövlət atributlarını bərpa edən ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin...".

### BAYRAĞIMIZ ÜZƏRİNDƏKİ HƏR BİR RƏNG AZƏRBAYCAN TARİXİNDƏN DANIŞIR

Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.

### "QARABAĞ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!"

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxışında belə demişdir: "Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş torpaqlarda da əbədi olaraq dalğalanacaq.

***Zümrüd BAYRAMOVA***

# "Tariximizdə hələ belə bir şanlı dövr olmamışdı"

"Azərbaycan dövləti son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoydu. Bununla da Azərbaycan dövlətçiliyinin tarixində yeni inkişaf dövrü başladı. Yenilməz sərkərdəsinin və uzaqgörən liderinin rəhbərliyi ilə möhtəşəm qələbəni əldə edən xalqımız bundan belə heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə bəyan etmişdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Deputat sözlərinə belə davam edib: "Təəssüf ki, Zəfərə gedən yol xalqımıza çox böyük qurbanlar və itkilər hesabına başa gəlmişdir. On minlərlə azərbaycanlı qətlə yetirilmiş, yaralanmışdır. Həmçinin kütləvi etnik təmizləmə nəticəsində 1 milyondan artıq soydaşımız 30 ildən artıq qaçqınlıq və köçkünlük həyatı yaşamağa məhkum edilmişdi. Hələ Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi bu günədək məlum deyil.

Həm Birinci, həm də Vətən Qarabağ müharibələrinin gedişində düşmən beynəlxalq konvensiyaların tələblərini kobudcasına pozaraq hərbi qulluqçulara və dinc əhaliyə qarşı çoxsaylı müharibə cinayətləri, o cümlədən soyqırımı və dövlət terrorizmi aktları törətmişdir. İşğaldan azad edilmiş ərazidə Ermənistanın mina terroru hələ də davam edir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə də çox sayda azərbaycanlı minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Bu gün qalib Azərbaycan xalqı Vətən müharibəsində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa-quruculuq işlərində də göstərir. İşğal dövründə viran qoyulmuş torpaqlarımıza yeni həyat gəlir. Məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına yönələn nəhəng layihələr həyata keçirilir. Şəhər və kəndlərin təməli qoyulur, yeni yaşayış məntəqələri öz sakinlərini qəbul edir. İnfrastruktur yaradılır, sənaye müəssisələri, digər obyektlər istifadəyə verilir, kənd təsərrüfatı dirçəldilir. Yollar, körpülər, tunellər çəkilir. Artıq həmin bölgədə iki beynəlxalq hava limanı istifadəyə verilmişdi.





Bu il isə 8 noyabr tam fərqli şəkildə qeyd olunacaq. Qədim Azərbaycan torpaqlarında Xankəndidə qeyd olunması bütün Azərbaycan xalqının arzusunun ifadəsidir. Mən deyərdim ki, bu, şəhidlərimizin ruhu, yaxınlarının qəlbini də şad edəcəkdir. Azərbaycan dövlət başçısı elə bir zəfərin təməlini qoydu ki, tariximizdə hələ belə bir şanlı dövr olmamışdı. Azərbaycanın qurucusu xilaskarı olan Ulu Öndərin davamçısı Azərbaycan xalqını gələcəyini və qürurunu xilas etdi. Zəfərin təntənəsi bu il Qarabağdan bütün dünyaya yayılacaq".

***Ayşən Vəli***

# İşğaldan azad edilmiş ərazilərdə müasir yol-nəqliyyat infrastrukturu

## İLHAM ƏLİYEV: "Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır"

Şanlı tariximizin Zəfər günlərinin üçüncü ildönümünü yaşayırıq. Müstəqilliyinin bərpasından sonrakı qısa zaman ərzində Cənubi Qafqazın ən güclü, ən qüdrətli dövlətinə çevrilən Azərbaycan İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbəsi ilə iki-əsrlik münaqişəyə, otuzillik işğala son qoydu. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik hərbi strategiyası əsasında Vətən müharibəsində qazanılan şanlı Zəfər Azərbaycan tarixinin ən möhtəşəm səhifələrindən biri olmaqla yanaşı, dünya hərb salnaməsinə də dərin iz qoydu. Bu hərbi nailiyyət Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi, bölgənin inkişafı üçün həlledici amilə çevrildi, həmçinin yeni və daha effektiv hərbi, siyasi, iqtisadi və ticarət konfiqurasiyasının formalaşmasına, yeni nəqliyyat kommunikasiyalarının açılmasına, region ölkələri və xalqları arasında sağlam əməkdaşlıq mühitinin yaranmasına, inkişafına istiqamət verdi.



### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN YOL-NƏQLİYYAT İNFRASTRUKTURU YENİDƏN QURULUR

Vətən müharibəsindəki parlaq zəfərdən sonra Böyük Qayıdış Proqramı bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Ən müasir şəhərsalma nümunələri istifadə edilir. Ölkə başçısı Qarabağı nəinki regionun, bütün dünyanın müasir, əsrarəngiz və təhlükəsiz bölgəsinə çevirməkdə qərarlıdır. Bunu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidənqurulmasına dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artırılması da aydın göstərir. Doğma yurdlarından köçkün düşmüş vətəndaşlarımızın öz evlərinə qayıtması üçün görülən işlər bütün sahələri əhatə edir.

Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı dediyi kimi, Şərqi Zəngəzur Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir. Öz kökünə dərindən bağlı olan xalqımız yurd-yuvalarına qayıdışı səbrsizliklə gözləyirdi. İnşa işləri məhz sakinlərimizin 30 illik həsrətinin bir az daha uzanmaması üçün sürətli, davamlı aparılır. Artıq Zəngilanda Ağalıda məskunlaşma var. Şəhərin Baş planı da təsdiq edilib. Təxminən 2025-ci ildə böyük köç başlayacaq. Laçında doğma ocaqlar işıqlandırılıb, Füzulidə də məskunlaşmalar var. İlin sonuna kimi yurd-yuvasına qayıdanların sayı artacaq və artdıqca da düşmənin son ümidləri üzüləcək.Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə çıxışında bildirib ki, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə gələn il ən azı 2,4 milyard ABŞ dollarının ayrılması nəzərdə tutulur: "Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur".Böyük Qayıdış Proqramının icra olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur".Bəli, Azərbaycan Böyük Qayıdışı öz daxili maliyyə mənbələri hesabına reallaşdırır. Qeyd edək ki, büdcədən 2021-ci ildə bərpa prosesinə 2.2 milyard, 2022-ci ildə 2 milyard 670 milyon manat nəzərdə tutulmuşdu. Bu isə o deməkdir ki, 3 il ərzində (2021-2023-cü illər) Qarabağ və Şərqi Zəngəzurunun bərpa bə yenidənqurmasına yalnız dövlət büdcəsindən 7 milyard 870 milyon manat vəsait ayrılır. Bu, məhz Qarabağın daha qısa müddətdə bərpasına olan xüsusi diqqətdir.




### SON 20 İL ƏRZİNDƏ BÜTÖVLÜKDƏ 21000 KİLOMETRƏ YAXIN AVTOMOBİL YOLU, PROSPEKTLƏR VƏ KÜÇƏLƏR TİKİLMİŞ, YENİDƏN QURULMUŞ VƏ TƏMİR OLUNMUŞDUR

Ölkədə son 20 il ərzində bütövlükdə 21000 kilometrə yaxın avtomobil yolu, prospektlər və küçələr tikilmiş, yenidən qurulmuş və təmir olunmuşdur. 2020-ci il ərzində 1385,3 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilmiş, qurulmuş və təmir olunmuşdur. Ən maraqlısı odur ki, son 20 ildə yalnız Bakı şəhərində 2000 kilometrdən çox yol çəkilmiş, yenidən qurulmuş və təmir edilmişdir. Bu müddət ərzində yalnız paytaxtda 83 yol ötürücüsü, 99 yeraltı və yerüstü piyada keçidi inşa olunmuşdur. 2210 yaşayış məntəqəsini birləşdirən kəndlərarası 5100 kilometr uzunluğunda avtomobil yolu tikilmiş, yenidən qurulmuş və təmir edilmişdir. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında heç vaxt yolu olmayan yerlərə də asfalt yol çəkilir. Təkcə 2021-ci ildə 700 kilometrə yaxın yol inşa edilib. Xüsusi olaraq vurğulanmalıdır ki, işğaldan azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturu yaradılarkən ən müasir standartlar tətbiq olunur. Digər bir mühüm amil ondan ibarətdir ki, yeni yolların çəkilməsində əsasən yerli materiallardan istifadə edilir. Cəmi 2 il əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil. Azərbaycan dövləti yalnız öz gücünə, heç bir beynəlxalq maliyyə qurumundan yardım almadan işğaldan azad olunan ərazilərdə ən müasir standartlara uyğun yol-nəqliyyat infrastrukturları yaradır. Ümumiyyətlə, son illər ölkəmizdə mükəmməl nəqliyyat infrastrukturu formalaşıb. Bütün bunlar beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan yolların keyfiyyətinə görə Asiyada 10-cu, dünyada 24-cü, MDB-də isə birinci yerdədir.

### BÖYÜK QAYIDIŞA DAİR I DÖVLƏT PROQRAMI"NIN İCRASI ÜZRƏ 2300 KİLOMETR UZUNLUĞUNDA 21 YOL LAYİHƏSİNİN İCRASI PLANLAŞDIRILIB

Bu il sentyabr ayının 16-da Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitindəki çıxışında Prezident İlham Əliyev vurğulamışdır ki, son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu istifadəyə verilib. 2020-ci ildə İkinci Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycan işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu çəkir.Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlqoyma mərasimində deyib ki, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır: "Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır".

Dövlətimizin başçısı bildirib: "İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var".Bir sözlə, işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə 2300 kilometr uzunluğunda 21 yol layihəsinin icrası planlaşdırılıb. İndiyədək həmin layihələrdən 5-i tamamlanıb. İstifadəyə verilən yolların ümumi uzunluğu isə 185,3 kilometrə bərabərdir. Cari ilin sonunadək icrası tamamlanan layihələrin ümumi sayı 12-yə çatdırılacaq. 2 layihənin 2024-cü, 3 layihənin 2025-ci və 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın 2020-ci il noyabrın 16-da Füzuli rayonuna səfərləri zamanı yolun təməli qoyulmuşdu. Noyabrın 17-də dövlət başçısının imzaladığı sərəncama əsasən, ümumi uzunluğu 101,5 kilometr olan bu avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrıldı. 2021-ci il noyabr ayının 7-də isə dövlət başçısı yolun açılışını etdi. Ancaq onu da vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin tikintisi ilə mütəmadi olaraq maraqlandığı Zəfər yolu 2021-ci ilin sentyabr ayından istifadəyə verilmişdir.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurda inşa olunan yolların hər biri Vətən müharibəsindəki qələbəmizi, Ali Baş Komandan İlham Əliyevin quruculuq əzmini simvolizə edir, dünya bir daha Azərbaycanın gücünə, qüdrətinə heyran qalır. Bütün bu proseslər bir daha beynəlxalq ictimaiyyətə göstərir ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasət regionda sülhün, təhlükəsizliyin qarantı, qətiyyətinin bariz təcəssümüdür.

***RƏFİQƏ KAMALQIZI***

# İSTİQLAL - bir hilal, bir ulduz və üç rəng

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ictimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*



***Vurulmuş tərtəmiz alnından, uzanmış yatıyor***
***Bir hilal uğruna, ya rəbb, nə günəşlər batıyor...***

***(Mehmet Akif Ersoy)***



***Bəlkə də dünyanın hansısa ölkəsində bayraq sadəcə simvoldur, dövlət rəmzidir, amma bizim üçün onun yeri, anlamı, mahiyyəti başqadır. Bayraq, onun uğrunda ölən atalarımızın, ərlərimizin, oğullarımızın, qardaşlarımızın qanıdır. Azərbaycan bayrağı bizim tariximiz boyunca verdiyimiz qurbanların, döyüşdüyümüz savaşların, qazandığımız qələbələrin - ümumilikdə müstəqillik mübarizəmiz zamanı tökülən qanların simvoludur. Bayraq şərəfdir, ləyaqətdir, bölünməz Vətən deməkdir.***

## Bayraqları bayraq edən...

Elə dəyərlər var ki, insanları eyni məqsəd ətrafında birləşdirərək kütləni millət edir, fərdləri cəmiyyət edir. Elə dəyərlər var ki, ”mən” anlayışını ”biz” anlayışına çevirir. Əgər bu dəyərləri cəmiyyətdən uzaqlaşdırsaq, o cəmiyyət yenə kütlə olacaq. Tariximizə nəzər saldıqda bunu çox açıq şəkildə görürük, milli-dini dəyərlərimizi formalaşdıran, bizi ”biz” edən bu dəyərlər, xalq olaraq bu günləri görməyimizi təmin edən ən mühüm ünsürlərdir.

Bu dəyərlər milli varlığımızın xəmiridir. Bizi millət olaraq yaşadan, yolumuzu işıqlandıran, böyük məqsədlərə çatmağımıza imkan verən, qələbə bəxş edən bu dəyərlərə sadiq olduğumuz üçün bu gün millət, xalq olaraq bir-birimizə bağlı qala bilmişik. Bunlardan məhrum olan xalq zaman keçdikcə millət kimi keyfiyyətini itirir, tarixdən yox olur. Bu dəyərlərə ürəkdən bağlı olmayan, lazım gələndə canını və malını belə vətəni, bayrağı qorumaq üçün qurban verməyə hazır olmayan bir cəmiyyət necə var ola bilər?

Bu yolda xalqımızın qəlbində dərin kök salan dəyərlərin ən başında vətən sevgisi, bayraq sevdası dayanır. Bayraq bizim qırmızı xəttimiz, alınmaz qalamızdır. Uğruna can verilən, yolunda qanlar tökülən 3 rəngli bayrağımız günümüzədək keçdiyi məşəqqətli yollardan sonra yenə əzəmətlə dalğalanır.



Vətən sevgisi elə bir hissdir ki, bu hiss təkcə insanlarda deyil, digər canlılarda da var. ”Bülbülü qızıl qəfəsə saldılar, yenə vətən-vətən deyə nalə çəkdi” misalı boşuna var olmayıb. Xan qızının Cənnət Bağında inləyən bülbül hekayəsini xatırlayın... Vətənə sahib olmaq lazımdır, amma vətənin olması yetərli deyil. Vətəndə istiqlal, azadlıq olmalıdır. Vətən azad olmalıdır, o azadlıq üçün əsrlər, minilliklər boyu nə qurbanlar verdik, nə əzablar çəkdik...

## Al qırmızı bayraqdan 3 rəngli yenilməzə...

İlk dəfə üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib. Amma Cümhuriyyətin ilk bayrağı ay-ulduzlu, al-qırmızı bayraq idi. Bu bayrağı tariximizdə ilk dəfə Babək Xürrəmi qaldırmışdı. Babəkin qaldırdığı qırmızı bayrağı qəhrəman Azərbaycan oğulları tarix boyu daha bir neçə dəfə dövlət bayrağı kimi dalğalandırdılar. Bu bayraq Səfəvilər İmperiyası dövründə bir daha ucaldıldı, 1908-ci ildə Cənubi Azərbaycan inqilabından sonra yaranan Azərbaycan Dövlətinin bayrağı kimi qəbul olundu. Azərbaycan Xalq Cumhuriyyətinin ilk rəsmi dövlət bayrağı oldu. Və nəhayət 1923-cü ildə Mustafa Kamal Atatürk dünya tarixinin ən qədim və müqəddəs qırmızı bayrağını Türkiyə Cumhuriyyətinin dövlət bayrağı kimi əbədi olaraq rəsmiləşdirdi.

Sovet Azərbaycanının bayrağı əvvəlcə bütövlüklə al-qırmızı rəngdə idi. Bu bayraq Sovet Azərbaycanının rəmzi kimi ilk dəfə 1920-ci ildə qəbul edildi. Bayrağın sol yuxarı küncündə sarı aypara və ulduz vardı. 1937-ci ildə latın hərfləri ilə AzSSR qızıl oraq və çəkicin alt hissəsinə əlavə edildi, amma 1940-cı ildə latın əlifbası ilə yazılan hərflər Kiril əlifbası ilə əvəzləndi. Azərbaycan SSR-in bayrağının axırıncı versiyası 7 oktyabr 1952-ci ildə qəbul edildi. Bu, aşağı hissəsində horizontal göy zolaq olan SSRİ bayrağı idi. SSRİ süquta uğrayanadək bu bayraq Azərbaycanın rəsmi dövlət rəmzi oldu. 1991-ci ildə, müstəqilliyimizin bərpasından sonra Azərbaycan Respublikasının dövlət bayrağı 3 rəngli hazırkı bayrağımız oldu.



## 3 rəng, 3 amal

Bayrağımız bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Bayrağın ilk rəngi olan mavi rəng Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, çünki mavi rəng türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

Əzəmətli bayrağımızın ikinci rəngi olan qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni, inkişafa istəyi ifadə edir. XVIII əsrin sonlarında Fransa Burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrildi. Bayrağımızdakı qırmızı rəng həm də bizim mübarizliyimizin, dönməzliyimizin, qorxmazlığımızın simvoludur. Bayrağımızın 3-cü rəngi olan yaşıl İslam sivilizasiyasına, islam dininə mənsubluğumuzu, həmçinin yenidən dirçəlişi ifadə edir.



## Ayparanın tarixində Babək Xürrəmi izi




Qırmızı rəngin üzərində ortada aypara və səkkizguşəli ulduzun təsviri verilib. Tarixçilərin bildirdiklərinə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyi ehtiva etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər var. Babək Xürrəminin ”göydə yeni aypara görünən zaman bizim üçün üsyanda qurtuluş gecəsi olacaq” sözlərini xatırlayın. Xürrəmilər, ayparanı yenidən doğulmaq, dirçəliş kimi xarakterizə edirdilər. Bəlkə də bayrağımızda onun təsviri tarixin həmin dərinliklərin qaynaqlanır.

Aypara həmçinin Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra həmin gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və həmin dində olan başqa xalqlara da keçib. Bayrağımızın üzərindəki ayparanı buna görə türk xalqlarının simvolu kimi də xarakterizə edirlər. Səkkizguşəli ulduzun mənasına gəlincə bu, ”Azərbaycan” sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada ”Azərbaycan” sözü səkkiz hərflə yazılır.



Tarixçilər həmçinin səkkizguşəli ulduzun mənasını belə açıqlayır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilik. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə-səkkiz türk xalqının simvolu kimi tarixə işlənir.

Başqa bir izaha görə Ay (qəməri) təqvimi islam ölkələrində geniş istifadə olunduğundan Ay təqvimində tarixdə ”Türk dövrü” kimi qalmış bir təqvim yaradılır. Ay fazalarının təkrarlanması müddətinə uyğunluq üçün təqvimdə hər səkkiz ildə üç dəfə (2, 5 və 7-ci illərdə) ilin axırıncı ayı olan Zilhəccəsinə 30-cu gün əlavə edilirdi. Bayrağımızdakı aypara işarəsinin buradan qaynaqlanma ehtimalı da istisna edilmir.

***Lalə Mehralı***

# Rusiyalı ekspertlər: Ermənistan öz dövlətçiliyini itirmək ərəfəsindədir




**Moskva ilə İrəvan arasında münasibətləri təsvir edəcək söz tapmaq getdikcə çətinləşir. Kremlin qəzəbli ritorikası adiləşir və İrəvan Moskvaya ünvanlanan zəhərli bəyanatları, məsələn, Belokamennayanı Ermənistanda dövlət çevrilişinə cəhddə ittiham etməkdən çəkinmir. Belə yüksələn ehtiraslar fonunda belə bir hiss var ki, Rusiya-Ermənistan münasibətlərinin tam qopması uzaqda deyil. Rusiyalı politoloqlar vəziyyəti necə görürlər? Stanislav Mitraxoviç və Aleksandr Ryabtsov bu haqda fikirlərini "caliber" analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.**

Milli Enerji Təhlükəsizliyi Fondunun eksperti, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin elmi işçisi Stanislav Mitraxoviç qeyd edir ki, Rusiya ilə Ermənistan arasında siyasi müstəvidə münasibətlərin daha da gərginləşməsi göz qabağındadır- çətin dövr yaşanır: tərəflər arasında etimad yoxdur- Moskva hesab edir ki, İrəvan bilərəkdən Rusiyadan uzaqlaşma kursu aparır.

"İndi Rusiyanın Ermənistandakı mövcudluğunu bütövlükdə sıxışdırmaq tendensiyası var: Rusiya hərbi bazasını bağlamaq, Rusiya telekanallarını Ermənistan efirindən çıxarmaq və KTMT-dən çıxmaq çağırışları var. Digər anti-Rusiya çağırışları da var. Ona görə də Rusiyada Ermənistanın indiki hakimiyyətinə və hazırkı siyasi kursa hər hansı rəğbət gözləmək çətindir. Maltadakı danışıqların mövzusu İrəvanın vəziyyəti gərginləşdirməyə yönəlmiş hərəkətlərinin daha bir göstəricisidir. Hətta Çin də bu danışıqlarda iştirakdan imtina etdi, çünki Rusiyanın yoxluğunda bu görüş mənasız hesab olunur. Lakin İrəvan iştirak etmək qərarına gəldi", - deyə o vurğulayıb. Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi ilə bağlı vəziyyəti təkrarlamaq cəhdlərinə gəlincə, o zaman, Mitraxoviçin fikrincə, Rusiya nə baş verdiyini görür. O, bunun beynəlxalq arbitrajda Azərbaycana qarşı çıxmaqla bağlı olması haqda arqumentləri qəbul etmir.

"Ermənistan Azərbaycana qarşı bu alətdən istifadə edə bilməz, lakin Vladimir Putinlə bağlı BCM-nin qərarını nəzərə alaraq Rusiya üçün bu, çağırışdır.

Hələlik Ermənistanın Rusiyadan uzaqlaşdırılması istiqamətində mövcud tendensiyanı dəyişə biləcək görünən məqamlar yoxdur. Hesab edirəm ki, belə bir siyasi kurs Ermənistanın özü üçün problemlərlə nəticələnə bilər. İrəvan nədənsə bunu nəzərə almır. Ermənistanın problemlərinin ABŞ və ya Avropa tərəfindən həll ediləcəyi ümidi ilə Rusiyadan uzaqlaşmaq ciddi səhv ola bilər. Mən onların yerində olsaydım, çox diqqətlə düşünərdim",- S.Mitraxoviç deyir.

Eyni zamanda, rusiyalı politoloq Aleksandr Ryabtsov da hesab edir ki, İrəvanın regionda və xüsusən də dünyada vəziyyətə dair dəqiq siyasəti və vahid baxışı yoxdur.

"Bu artıq qeyd olunub və bunu mən irəli sürməmişəm, amma mən tamamilə razıyam- İrəvanın həqiqətən də uzunmüddətli diplomatik fəaliyyət planı, xarici siyasət strategiyası yoxdur. Bu, plastilin kimi dəyişkəndir- bu gün Paşinyan və aparatı yuxudan hansı əhvalda qalxıbsa, hər şey elə də olur. Onlar təxminən 2020-ci ildən, Ermənistan təslim olandan bəri belə yaşayırlar. Ermənistanın baş naziri plan qurmur, anlayır ki, çox şey anlıqdır və daim "həm bizim, həm də sizin" prinsipi ilə oynamaq lazımdır.

Ona görə də Ermənistanın xarici siyasəti diplomatik kobud səhvlərdən ibarətdir, burada bu gün bir şey, sabah başqa şey demək olar. Bəli, indi İrəvan doğrudan da Qərblə yaxınlaşma kursunu müəyyənləşdirib, lakin Paşinyan və komandası belə qərarların risklərini hesablamır. Və biz görürük ki, bu belədir- İrəvanın zəhərli şıltaqlığı Moskvanın Qarabağı silahlı birləşmələrdən təmizləməkdə Bakıya mane olmamasına açıq şəkildə təsir etdi. Amma əvvəllər Rusiya sülhməramlı korpusunun məsuliyyət zonasında Bakının vəziyyəti dəyişmək cəhdlərinə imkan verilmirdi.

Moskva Yerevana dayəlik etmək fikrincə deyil. Qərblə yaxınlaşmağa çalışan İrəvan özünü etibarlı tərəfdaşsız, Cənubi Qafqazdakı "yaşayış yeri"ndə heç bir təhlükəsizlik təminatçısı olmadan görür. Amma Paşinyan komandasının qərarlarında nədənsə hər şey çox xaotikdir. Məsələn, İrəvan nədənsə Rusiya Federasiyasının Qafanda Baş Konsulluğunun açılmasını dəstəkləyib, görünür, bunun regionda açıq desək, perspektivsiz oyunda ona kömək edəcəyinə inanıb. Lakin bu məqam heç bir şəkildə vəziyyəti kökündən dəyişmir- Ermənistan öz dövlətçiliyini itirmək ərəfəsindədir, üstəlik, bu elə bir şəkildədir ki, heç kim bu məsələdə kömək edə bilməyəcək",- deyə A.Ryabtsov yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Əzim Əzimzadə məktəbi ZƏFƏR sözünü dedi



Bu gün 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan rəssamı Əzim Əzimzadənin mənzil-muzeyində M.A. art studyanın şagirdlərinin əl işlərindən ibarət rəsm sərgisi keçirilib. Sərgidə mənzil-muzeyin direktoru İradə xanım Əzimzadə çıxış edərək, 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Şəhidlərimizin ruhunu 1 dəqiqəlik sükutla yad etdikdən sonra o, sentyabrın 27-dən başlayan və 44 gün davam edən, işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyini qeyd edib. 44 günlük Vətən müharibəsinin Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Azərbaycan Ordusunun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin, şəhidlərimizin canı-qanı hesabına xalqımızın zəfəri ilə başa çatdığını və Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldığını söyləyib.

Daha sonra çıxış edən M.A. art studya adlı rəsm qalereyasının rəhbəri Münəvvər xanım Allahquliyeva ilk növbədə tədbirin keçirilməsi üçün onlara yaradılan şəraitə, diqqər və qayğıya görə mənzil-muzeyin rəhbərliyinə öz təşəkkürünü bildirib. Sərgini təşkil etməkdə əsas məqsədin xüsusi istedada malik olan uşaqları üzə çıxarmaq, onların yaradıcılıq bacarıqlarının inkişafına daim dəstək verməkdən ibarət olduğunu vurğulayıb. Həmçinin, 30 illik münaqişəni sona çatdıran Azərbaycan Ordusunun gücünün, qüdrətinin 44 günlük qəhrəmanlıq savaşının tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacağını qeyd edib.

Çıxışlardan sonra tədbir iştirakçıları şagirdlərin əl işləri ilə yaxından tanış olublar. Tədbirdə iştirak edən balaca rəssamlar - Nəzrin Rəsulzadə, Aynur Vəliyeva, Zibeydə Məhərrəmova, Mehin Əliyeva, Nuray Məmmədli, Aylin Əliyeva və başqaları öz şəkilləri haqqında qonaqlara məlumat veriblər. Sərgi ilə tanışlıqdan sonra mənzil-muzeyinin direktoru, İradə xanım Əzimzadə Azərbaycan rəssamı Əzim Əzimzadənin həyat və yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib və bu, balaca rəssamların böyük marağına səbəb olub. Sərgiyə baxış keçirildikdən sonra xatirə şəkli çəkdirilib.

***Afət Tahirqızı***



# Dalğası hünər, qeyrət, şəhid qanı BAYRAĞIM...

**Mətanət MƏMMƏDOVA**

**Bu xalq dövlətinə, millətinə məxsus olan bayrağını asanlıqla yüksəklərə ucaltmayıb. Bu yolda zaman-zaman qanlar axıdılıb, igidlər, ərənlər düşmən gülləsinə tuş gəlib, Vətən yolunda şəhid olublar. Elə qırmızı rəngi şəhid qanından alan bayrağımız zirvələrdə dalğalanarkən şəhid adını da özü ilə birlikdə zirvələrə qaldırıb. Vətənimizin adını, qüdrətini, qeyrətini də həmçinin.**

Xalqımın canı qədər sevdiyi üçrəngli, ulduzlu, ayparalı bayraq... Lakin bu bayrağın da "taleyi" xalqın taleyi kimi keşməkeşli olub. 1918-ci ildə azadlıq uğrunda mücadilənin son nəticəsi olaraq qaldırılan üçrəngli bayrağımız Azərbaycan Xalq Cümhuriyyətində cəmi 23 ay dalğalandı, Vətənimizin göylərini üç rənglə - göy, qırmızı, yaşılla cəmi 23 ay bəzədi.

Gözü torpaqlarımızda, iştahası sərvətlərimizdə olanlar bu müstəqil respublikanın tərəqqisinə imkan vermədilər. Əsrlərlə həyata keçirilmiş planlar yenidən təkrarlandı. Çoxəsrlik tarixi, ənənələri olan Azərbaycan yenidən bu planların qurbanı oldu. Həmin planların müəllifləri 14 müttəfiqdən biri kimi Azərbaycanı da öz müstəmləkəsinə çevirməklə, 70 illik əsarətə məhkum etdilər. Müstəqilliyimizi əlimizdən aldılar, üçrəngli bayrağımızı da dalğalanmağa qoymadılar. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Sovet Sosialist Respublikası adlandırıldı, bayrağımız isə üçrəngli deyil, imperiyanın müəyyənləşdirdiyi bayraq oldu. Nə az, nə çox, düz 70 il dalğalandı başımız üzərində. Lakin ürəyimizdə yüksəklərə qalxa bilmədi. Çünki istəmədiyimiz, özümüzünkü olmayan bir bayraq idi. Qanlar bahasına ucaldılmış bayrağın yerinə sancılmış bayraq idi. Sərvətləri talanan, hüquqları tapdalanan, tarixi mənimsənilən bir məmləkətin ələm bayrağı idi.

İllər illərə calandıqca, onilliklər bir-birini əvəz etdikcə, zamanı 70 ilə yaxınlaşdırırdı, bununla da əsarətin sonu çatırdı. "Bayraqları bayraq edən üstündəki qandır" kəlamı bu illər uzunu ürəyimizdəki yaranı sızladırdı. Bu sızıltılar isə millətin yuxusunu ərşə çəkir, onu yeni mübarizələrə səsləyirdi. Bu səs Azərbaycana Naxçıvandan yayılırdı. 1990-cı ildə Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan Vətən oğlunun - Ulu Öndər Heydər Əliyevin azadlıq mübarizəsinə çağırışı ilə bütün Azərbaycana yayılırdı. Müstəqillik uğrunda 1918-ci ilin davamı olan mücadilə elə üçrəngli bayrağın yenidən qaldırılması, dalğalanması və bütün azərbaycanlıların bir bayraq altında cəm olması ilə başlandı. Bu təşəbbüs 1990-cı ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi birinci sessiyasında qatı totalitar sovet rejimi dövründə belə, Azərbaycanı gələcək müstəqilliyə hazırlayan bu görkəmli siyasi xadim tərəfindən irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi və ölkənin ali hakimiyyət orqanı qarşısında Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul edilməsi ilə bağlı vəsatət qaldırıldı.

Bəli, bu, o zaman idi ki, hələ ölkə sovet imperiyasının əsarət zəncirində inləyirdi. Naxçıvandan Azərbaycana yönələn bu müqəddəs çağırışa imperiya başçıları tab gətirə bilmirdilər. Azərbaycanın əldən çıxması, onun ardınca digər müttəfiqlərin də getməsi... Bu yanğı ilə yenidən qanlar axıdıldı. Ölkəmizə xüsusi qoşun göndərildi xalqı susdurmaq üçün. Lakin bu dəfə azərbaycanlılar "öldü var, döndü yox", - dedilər. Elə buna görə də müstəqillik qazana bildik. Qanlar axıdılsa da, yenə də saysız-hesabsız şəhidlər versək də, sonda azad olduq. 1991-ci ilin 18 oktyabrınadək, yəni 1990-cı ilin 17 noyabrında Naxçıvanda Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılması təklif olunan və azadlıq mücadiləsinə aparan yolun rəmzi olan bayrağımız axıdılan qanla yenidən boyandı və əbədiyyən yüksəldi, dalğalanmağa başladı.

Sevindirici, həm də qürurverici haldır ki, müstəqil dövlətimizin üçrəngli bayrağı əbədiyyən Naxçıvanda Ulu Öndərimizin təşəbbüsü, qayğısı ilə qaldırıldı. Ümummilli Lider deyirdi: "Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik. Və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm. Və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm".

Ulu Öndərin layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır. 2009-cu il noyabr ayının 17-də isə Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi barədə imzaladığı sərəncama əsasən hər il noyabrın 9-nu respublikamızda Dövlət Bayrağı Günü kimi təntənəli şəkildə qeyd edirik.

İndi doğma Azərbaycanımızın hər bir bölgəsində yaradılan Bayraq meydanlarında, Vətənində və Vətənindən kənarda yaşayan bütün azərbaycanlıların qəlbində üçrəngli bir bayraq dalğalanır.

Dalğalan, dalğalan, yüksəklərə, zirvələrə ucal, milli bayrağımız! Müstəqil Azərbaycanın dövlət rəmzi olaraq bu Vətənin azad səsini elə bu Vətənin küləkləri ilə dünyaya yay!

# “Azərbaycan türk dünyasında mühüm mövqeyə malikdir”



“Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq əlaqələrinə yeni impuls verir. Qloballaşma meyillərinin gücləndiyi müasir dövrdə milli identikliyin, tarixi köklərə bağlılığın qorunması olduqca mühüm çağırışa çevrilir”. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib. Sədr bildirib ki, eyni milli kökləri bölüşən türkdilli ölkələrin bir təşkilat daxilində fəaliyyəti həm də bu baxımdan əhəmiyyət kəsb edir: ”Bu gün 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyada əhatə olunan və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malik Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr tərəfindən milli maraqlar nəzərə alınaraq qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirilir. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlıq getdikcə genişləndirilir.

Mühüm coğrafi məkanda yerləşən qardaş türk ölkələrinin iqtisadi imkanları çox genişdir, zəngin enerji resurslarına sahibdirlər. Eləcə də vacib nəqliyyat yollarına malikdirlər. Bu, onu göstərir ki, türk dövlətlərinin birliyi həm də dünya iqtisadiyyatı üçün xeyli önəmlidir. Odur ki, bu üstünlükləri dəyərləndirərək səyləri birləşdirmək, həmrəyliyi möhkəmləndirmək qardaş ölkələrin ancaq güclənməsinə səbəb olub. Türk Dövlətləri Təşkilatının xüsusən son illərdəki fəaliyyəti bunun üzv dövlətlər üçün ən səmərəli platforma olduğunu təsdiqləyir. Təcrübə göstərir ki, yaxın coğrafiyalarda baş verən gözlənilməz hadisələrin, yaşanan gərginliklərin fonunda ortaya çıxan böhranlardan yalnız birlikdə xilas olmaq mümkündür.

Azərbaycan TDT-yə üzv dövlətlər arasında münasibətlərin inkişafına xüsusi önəm verir, Türk dünyası birliyinin güclənməsini daim diqqətdə saxlayır. Ulu öndər Heydər Əliyev dövlətimizin xarici siyasi strategiyasını formalaşdırarkən türk dövlətləri ilə əlaqələri prioritet hesab edib və qardaş ölkələrin biri-birinə yaxınlaşmasına mühüm töhfələr verib ki, bu siyasət bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin ”Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir” kəlamı həm də digər türk dövlətlərinin bir araya gəlməsində, birliyinin yaranmasında və möhkəmlənməsində mühüm rol oynayıb. Demək olar ki, Ümummilli Liderin bu sözləri bütün Türk dünyasının dilinin əzbəridir. Azərbaycan Türk Dövlətləri Təşkilatını yaradan ölkələrdən biri kimi daim bu birliyinin güclənməsinə çalışıb. Artıq əminliklə deyə bilərik ki, təşkilat beynəlxalq siyasətin tamhüquqlu mühüm tərəfinə və regional güc mərkəzinə çevrilib, dünyada sülh və sabitliyə böyük dəstək verir.

Qeyd edək ki, təşkilatın məhz 2009-cu il oktyabr ayının 3-də Naxçıvan Sazişi ilə yaradılması da bunun bariz ifadəsidir. Təşkilatda təmsil olunan ölkələr arasında həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi mü-nasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksək səviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes forum gerçəkləşdirilib. Bu görüşlər və biznes forumlarda quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticələrlə diqqət çəkib.

# MEDİA EKSPERTİ: “Jurnalistika sahəsində inkişafın son həddi yoxdur”

“Bu gün Azərbaycanda Milli Televiziya və radio günü qeyd olunur. Bu münasibətlə elektron media sistemində çalışan həmkarlarımı təbrik edirəm. Azərbaycanda uzun illərdir ki, qeyd olunan bu bayram 2023-cü ildə əlavə bir ovqatla keçirilir. Belə ki bu bayram ”Zəfər günü” ərəfəsinə təsadüf edir”. Bu sözləri SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri (JuHİ), Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli deyib. Onun sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında xalqın bütün təbəqələri kimi bizim kütləvi informasiya vasitələri, jurnalistlərimiz də yaxından iştirak ediblər: ”Qələbə uğrunda mübarizədə Azərbaycan jurnalistikası da şəhidlər verib. 11-ə yaxın KİV nümayəndələri arasından şəhidimiz olub. Bu baxımdan ”Zəfər günü” ərəfəsində Azərbaycan Televiziyası və Radio gününün qeyd olunması xalqımız üçün ikiqat bayramdır”.



”Jurnalistika elə bir sahədir ki, burada inkişafın son həddi yoxdur. Bu sahədə daim yenilənmə və inkişaf gedir. Azərbaycan media mühiti də bu yeniliklərə uyğunlaşmaq üçün daim təşəbbüs göstərir. Əlbəttə ki, bu gedişatda çatışan və çatışmayan cəhətlər mövcuddur. Uğurlarla yanaşı müəyyən problemlər də var. Ümid edirəm ki, növbəti mərhələlərdə Azərbaycanın teleradio məkanında vacib olan dəyişikliklər barədə ictimaiyyəti məlumatlandıracaq”,- deyə o əlavə edib.

***Ləman Sərraf***



# Arzuları puç olan ”yan”ların son aqibəti...

**RƏFİQƏ**

30 il idi ki, Qarabağ dərdimizdən yazırdıq. Fikirləşirdim ki, nə qədər də Qarabağımızın həsrətinə dözmək olar? Ancaq dözmək vaxtı deyildi. Səbir kasası dolmuşdu. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan, Prezident İlham Əliyevin ”Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başlandı. 30 illik Qarabağ münaqişəsi və müharibəsi Ermənistanın ilk gündən Ali Baş Komandanımız ”Dəmir yumruğu” gec oldusa da, güc oldu”, 30 ilin torpaq həsrətinə 44 gündə son qoyuldu. İşğalçı ölkənin olmayan muzdlu ”ordusu” silahı atıb siçan deşiyi belə tapa bilməyərək, ”Dəmir yumruğ”un qorxusundan hətta şalvarlarını, layiq olmadıqları papaqlarını qoyaraq qaçdılar.

Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin dillər əzbərinə çevrilən, müdrik atalar sözləri sırasına yazılan ”Qarabağ Azərbaycandır!” və ”Bəs nooldu, Paşinyan?” ifadələri bu gün də haqqın-ədalətin qələbəsinin güclü olmasının təsdiqi kimi səslənir. Azərbaycan dövləti, ölkə rəhbərliyi məhz hücum siyasəti nəticəsində qələbələrini qazanır, bundan sonra da qazanacaq, öz doğma xalqı, milləti ilə bir yerdə həmişə olacaq! Və cəmi 44 günə mümkünsüzü mümkün edən Müzəffər Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 30 illik həsrətə son qoyuldu, ədalət ərazi bütövlüyümüz bərpa olundu, Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Noyabrın 10-da isə Ermənistan ”ağ bayraq” qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı. Artıq Ordumuz ermənninin qorxaq, şərəvfsiz ”ordusunu” iti qovan kimi qovmaqla yanaşı, leşləri, başsız qalmış papaqlar, papaqsız qalmış düşmən başları ortada qaldı və bu gün ermənilərin Birinci Qarabağ müharibəsində ”qələbə”lərinin simvolu olaraq Xankəndi-Şuşa yolunun üzərində yerləşdirdikləri T-72 tankı Bakıdakı Hərbi Qənimətlər Parkındadır.

Qalib Sərkərdəmiz İlham Əliyev oktyabrın 15-də tarixi torpaqlarımız olan Xankəndidə müqəddəs üçrəngli bayrağımızı qaldırdıqdan sonra xalqa tarixi müraciətində bir daha erməni təlxəklərinin istəklərinin puç olduğunu deyərək bildirdi ki, ”Burada (Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası - red.) oturmuş özünü ”prezident” adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü ”baş nazir” adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir”,- deyən dövlətimizin başçısı bildirib: ”Burada özünü ”xarici işlər naziri” adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!”.

## Bəli, unutmasınlar! Unutmasınlar ki, ”qisas qiyamətə qalmaz!”

Dahilər də bu papaqsız, hətta arvad-uşaqlarının qoyan bu satqın, şərəfsiz, quldur ermənilər haqda deyiblər ki, vücudsuz, şərəfsizdilər.Gürcü yazıçısı Serqi Sacayanını dediyi kimi: ”Erməni deyilən ”millət” peyda olduğu gündən bu günə kimi çaqqal, goreşən olublar. Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır”. K.MARKS: ”Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur”.Bunu elə erməni tarixinin atası sayılan MOVSES XORENASİ hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında deyirdi: ”Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir”.

Bax, budur, özünüz dediyiniz kimi: ermənilər dördayaqlı heyvanlardır. Azərbaycan xalqı isə ”Dəmir yumruq” əməliyyatı ilə onlara yerini göstərdi. Azərbaycan Prezidentimizin xalqa müraciətində dediyi dahi fikiri dünya tarixində əbədi qalacaq: ”İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur!”.Bəli, belə bir ibrətamiz söz də var: ”Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!”.Artıq biz qalibik! Qələbə də qazanmışıq, özü də təlxək və sərxoş, maymaq Paşinyan və qorxaq ”orduları”nı iti qova-qova özgə torpağına göz dikənlərin gözünü çıxartmaqla. Çünki Qarabağ Azərbaycandır!

# Qərbin "demokratiya" ixracı

Əvvələ demokratiya nədir, sualına aydınlıq gətirək. Bu söz birləşməsi yunan mənşəlidir, demos - xalq, kratos isə hakimiyyət deməkdir. Yəni, cəmiyyətin siyasi təşkili formasıdır, hakimiyyətin mənbəyinin xalq olmasıdır. Vətəndaşlara geniş hüquq və azadlıqlar verilməsinə əsaslanan demokratiya budur. İlk baxışda sadə görünən mürəkkəb söz bəzi təşkilatların, dövlətlərin, siyasilərin dilində fərqli məna kəsb etməyə başlayıb. Ərazicə kiçik olan ölkələri təsir altına salmaq marağından çıxış edən supergüclərin bir bəhanəsi də demokratiya çatışmazlığı, yaxud bu nəsnənin olmamasıdır. Maraqlıdır, demokratiya problemi yaşayan dövlətlərin başqalarından bunu tələb etməsi hansı məntiqlə döğrudur. "Öz gözündə tiri görməyənlər, başqasının gözündə tük axtarır" misalı da tam yerində deyilir. Yalançı doğrudan, savadsız savaddan, ədalətsiz ədalətdən danışanda manasibətlər də, baxışlar da dəyişir. Bu gün dünyanın mizan tərəzisinin itməsində də bu amil böyük rol oynayır.




Demokratiya adlı bəhanələrlə rəngli inqilablar, iğtişaşlar, münaqişələr və müharibələrin törədildiyinə hər kəs şahiddir. Hamıdan daha çox ədalətdən, "xalq hakimiyyəti"ndən, yəni demokratiyadan danışan, boğazını yırtan Qərbdə hələ də apartheid, ayrıseçkilik, dinlər, millətlər arası nifrət siyasəti bütün baryerləri aşaraq sürətlə genişlənib. 1980-ci illərə qədər irqçilik ABŞ-da bir həyat tərzi idi. Qara dərililərin ağlarla bir avtobusda səyahət etmək problemi yaşanırdı. Hətta dərisinin rəngi qara olan afroamerikalı həyatını da itirə bilərdi. Bütün bunlar heç kimi narahat etmirdi, sanki bu, belə də olmalı idi. Amma ABŞ Sovet İttifaqına insan haqlarından "dərs" deməyə çalışırdı, bu ölkəni "xalqlar həbsxanası" adlandırırdı. Elə düşünməyin ki, özünə "demokratiyanın beşiyi" adlandıran Amerika mövqeyini dəyişib, tərbiyyələnib. Əksinə, daha da qəddarlaşıb, başqasını suçlamaqdan yorulmur, lazım bildiyi vaxt kimsədən icazə almadan, kimsənin rəyini dinləmədən planetin bu ucundan tutmuş, o biri ucuna qədər, istədiyi ölkənin, xalqın iç məsələsinə müdaxilə edir, çaxnaşma salır, nizam-tərəzisini pozur, demokratiya dəyənəyi ilə qarşısına keçənləri əzib-keçir.





Liviyada, Misirdə, İraqda, Suriyada, Ukraynada və nəhayət Yaxın Şərqdə yaşananlardan xəbərimiz var. Nə dəyişdi? Kimyəvi silahlar, terrorçular tapılmadığı kimi, bu ölkələrə demokratioya da gəlmədi, yaxud gətirilmədi. Deməli məqsəd cəmiyyəti demokratikləşdirmək deyilmiş. Liviyanın polkovnik lideri Müəmmar Qəddafi ölkəsində nəyi düz etmirdi? Xalqı üçün hər şey pulsuz idi. Ümumi bir sözlə ifadə etsək liviyalılar cənnətdə yaşayırdılar. Amma özlərinin bundan xəbəri yox idi. Yalnız əllərindəkini itirəndən sonar anladılar haradan hara gəldiklərini. Qəddafi BMT-nin tribunasından Qərbin iç üzünü açmışdı, onları ifşa etmişdi. "Böyük Britaniya sərnişin təyyarəsini iki liviyalı partladıb" bəhanəsi ilə Qəddafini hədəfə alanda da məqsəd bu ölkəyə qarşı total hücuma start vermək, Liviyanın sərvətini ələ keçirmək idi. Avropalılar liviyalılara qibtə ilə yanaşırdılar, Avropa universitetlərində təhsil alan tələbələrə Liviya dövlətinin qayğısı, onların bütün məsrəflərini ödəməsi "qoca qitə" sakinlərinin, dövlət ərkanlarının yuxusunu ərşə çıxarmışdı. Kapitalizmin yaratdığı vəhşi həyat tərzi humanizmi anlamamaq xəstəliyini avropalıların geninə qədər yoluxdurmuşdu. Nəyin bahasına olursa olsun Liviyadakı bu nizam pozulmalı idi və yüksək ustalıq və qəddarlıqla pozuldu. BMT TŞ qətnaməsini gözləmədən Fransa olmayan sənədə istinad edərək Liviyanın hava məkanını bağladı, ardınca bu ölkənin şəhərlərini bombardman etməyə başladı. Demokratiyanı özünə bayraq edən Qərb kimsəni dinləmək istəmədiyini yağdırdığı bombalarla isbat etdi. Geriyə qalanlar isə Liviyanın tar-mar, Qəddafinin isə linç edilməsi oldu. Bir ölkənin Lideri yadellilər tərəfindən öldürüldüsə, deməli həmin xalq öldü, məhv edildi, ayaqlar altına atıldı. Və bu gün belədir, Liviya Avropanın görmək istədiyi bir duruma salınıb, iki yerə bölünüb, vətəndaş müharibəsi gedir, Qəddafiyə qədər yağ-bal içində yaşayan liviyalılar bu gün avropalıların ianələrinə möhtac qalıblar.

İraqda baş verənlər də zaman və formaca fərqli olsa da mahiyyətcə eynidir. Kimyəvi silah bəhanəsi ilə İraqa soxulan 28 Qərb dövləti istədiyinə nail olsa da, kimyəvi silah tapa bilmədi, hətta onu axtarmadı da. Hərçənd bunun bir uydurma olduğunu bilirdilər, ona görə də müharibən tam ortasında "Əl-Qaidə" lideri Üsəma Bin Ladeni axtardıqlarını dedilər. Böyük Britaniyanın öz qoşunlarını İraqdan tələm-tələsik çıxarmasının da səbəbi yalanlara inanmaları oldu. İraq prezidenti Səddam Hüseynin aqibəti də Qəddafininkindən fərqli olmadı. İraq parçalandı, vətəndaş müharibəsi hələ də davam edir, nefti Qərbin əlinə keçdi, milyardlarla hesablanan aktivləri donduruldu, mənimsənildi, oğurlandı, tarixi abidələri müxtəlif bəhanələrlə ölkə ərazisindən çıxarıldı, hərraclarda satıldı. Səddamı bir "tiran"kimi asanlar bu gün peşmançılıqdan öz yaxınlarının üzünə çıxa bilmirlər, çünki aldadılıblar, oyuna gətiriliblər.

Bu gün Qərbin əlində ən böyük silahı atom bombası deyil, demokratiyadır. Hansı ölkədə maraqlarını təmin etmək istəyi yaranırsa ABŞ o ölkəyə "demokratiya", " insan haqqları" dəyənəyi ilə gedir. Cənubi Qafqazda nəhəng güclər üz-üzə dayanıb. İran, Rusiya və Türkiyə region ölkələridir, anladıq. Bəs Cənubi Qafqazda Avropa, ABŞ və Çinin arasındakı nüfuz və mövqe savaşına nə deyirsiniz. Qərblilər düşünür ki, Cənubi Qafqazın "ən zəif bəndi" Ermənistan SSRİ və daha sonar Rusiyanın təsir dairəsində qaldıqca demokratiyadan uzaqlaşır, inkişafdan qalır. Ona görə də erməni dövlətinə dəstək olmalıyıq. İndi gəlin görək, Qərbin Ermənistana dəstəyi, deyəndə nə anlaşılır? Əlbəttə, məsələnin kökündə ABŞ-ın Ermənistanda, dolayısı ilə Cənubi Qafqazda oturması, yerləşməsi dayanır. Ermənistanıən demokratiyadan uzaqlaşması, iqtisadi inkişafdan qalması cəfəngiyyatdır. Çünki Ermənistanda və ermənilərdə bunlar yoxdur, olmayan problemi isə həll etmək "Don Kixot"luqdur.

Cənubi Qafqazda baş verən hadisələrin, siyasi oyunların baş hakimi ABŞ olsa da tam olaraq meydanda görünmür. Onun funksiyasını "laysman"lar Fransa və Almaniya yerinə yetirir. Fransanın işğalçı Ermənistanı yenidən silahlandırması, Türk Dövlətləri Təşkilatını içindən vurmaq üçün Qazaxıstan və Özbəkistana səfəri böyük oyunun kiçik bir epizodudur. İlk baxışdan Afrikadan qovulan Fransa Orta Asiyada özünə yeni müttəfiqlər axtarır, iqtisadi əlaqələr qurmağa çalışır. Amma bir az dərinə gedəndə rəsmi Parisin "yuxarıların" tapşırığı ilə nə qədər çirkin oyunlara bulaşdığı ortaya çıxır.

Fransa ilə Almaniyanın qərəzi, ədalətsizliyi sərhəd tanımır. Hər iki ölkə Avropa Birliyinin aparıcı ölkələridir. Belə vəziyyətlərdə sinxron hərəkət edirlər. Almaniya və FransanınXİB başçılarının bəyanatları, tezisləri demək olar, üst-üstə düşür. Bu günlərdə Bakıda səfərdə olan Almaniya xarici işlər naziri Annalena Berbokun danışığını, rəftarını izlədik. Berbok Ermənistanda özünü necə apardı, Bakıda hansı siyasi tərbiyəsizliyə yol verdi - hər birinə şahid olduq. İş o yerə çatdı ki, bütün diplomatik etiketləri ayaqlar altına alıb, Azərbaycanın BMT tərəfindən tanınan şəhərlərinin adlarını təhrif edərək saxta erməni toponimləri ilə dedi. Xarici işlər naziri Ceyhun Bayramov birgə mətbuat konfransında Berbokun bu "yanlışlarını" düzəltməli oldu. Əslində XİN başçımızın bu müdaxiləsi Berbokun timsalında Almaniya diplomatiyasının üzünə vurulan tərs şillə idi.

Qərbin yeritdiyi bu siyasət ikiüzlülükdür. Azərbaycan və Türkiyə prezidentləri də dəfələrlə Qərbi ikiüzlülükdə suçlayıb. Qərb ölkələrində də ictimai kəsim hakimiyyətdə olanların, dövlət rəhbərlərinin fikirləri ilə razı deyillər.

ABŞ başda olmaqla Qərb müdafiə olunmaq üçün Ukraynaya ən müasir silahlar verir, bu ölkəyə maddi və mənəvi dəstəyini əsirgəmir. Faktiki olaraq Ukrayna üzərindən Qərb Rusiyaya qarşı "proksi müharibə" aparır. Necə olur ki, Qərb bütün vasitələrlə Ukraynada Rusiyanın dəstək verdiyi separatizmə qarşı döyüşür. Ancaq Azərbaycanda Rusiyanın dəstək verdiyi separatizmi müdafiə edir. Niyə? Ən önəmlisi də bu suala cavab tapılmasıdır. Qərb Gürcüstanda, Ukraynada, Moldovada separatizmi rədd edir. Söhbət Qarabağ ermənilərindən gedəndə isə Qərb tanınmaz dərəcədə dəyişir. Böyük Britaniya Krımı geri almaq üçün ukraynalı komandoslara xüsusi hərbi təlimlər keçir. Qərb israr edirdi ki, Laçın yolu dəhliz statusunda açılmalıdır. Ancaq rusların çoxluqda olduğu Krım yarımadasını Rusiya ilə birləşdirən Krım körpüsünün partladılmasını toy-bayram edirdi. Qərbdə, xüsusən Fransada Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququndan dəm vururdular. Ukrayna, Gürcüstan və Moldovada tamam əks mövqedən çıxış edirdilər.

Fransanın, Almaniyanın Azərbaycana qarşı ədalətsiz, qərəzli mövqeyi əslində Ermənistana canıyananlıqdan irəli gəlmir. Ermənistanın guya Türkiyə və Azərbaycan tərəfindən təzyiqlərə, təhdidlərə məruz qaldığını əsas göstərərək, bəhanə edərək, bölgəyə hərbi kontingent çıxarmaq - hədəf budur. Aİ-nin Monitorinq Missiyası adı altında Ermənistanda peyda olmasının əsl səbəbi də budur.

V.VƏLİYEV

SƏS
8 noyabr
2023-cü il

# ”Qızların tam olaraq pulsuz təhsilə cəlb edilməsi lazımdır”





EKSPERT ŞƏRH ETDİ

“Hal-hazırda 4 min 432 orta ümumtəhsil məktəbində təhsil alan 1,6 milyon şagirdin 51 faizini qız şagirdlər təşkil edir və bugün biz görürük ki, qızların xüsusən bölgələrdən digər ərazilər təhsillə bağlı müəyyən qədər problemləri ortaya çıxır. Yəni, ən vacib məqamlardan biri məhz qızların təhsilə cəlb edilməsidir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, düzdür, ümumilikdə təhsilin əlçatanlığı tam şəkildə təmin olunub: ”Biz bunu birmənalı şəkildə görə bilirik. Yəni, bizim istər ali istər orta ixtisas, istər peşə təhsili müəssisələrində hər hansı bir gender məhdudiyyəti yoxdur. Amma buna baxmayaraq təhsilin əlçatanlığının təmin edilməsində qızlarla bağlı müəyyən problemləri görə bilirik. Bu da ailələrdən qaynaqlanan bir məsələdir. Yəni, bəzən valideynlər övladlarının yaşadıqları yerdən kənarda təhsil almasında o qədər də maraqlı olmurlar. Bunun birinci səbəbi təbii ki kənara getməklə bağlı problemdirsə, ikinci səbəbi ailənin maddi vəziyyəti ilə bağlı olur. Yəni bəzən ailələrin maddi imkanı olmur ki, onlar övladlarını xüsusən ödənişli əsaslarla təhsilə cəlb etsinlər. Hesab edirəm ki, bununla bağlı xüsusi dövlət proqramı olmalıdır. Yəni, ödənişli əsaslarla təhsil alan qızlar dövlət büdcəsinin vəsaiti hesabına təhsil haqqları ödənməlidir. Qızların tam olaraq pulsuz təhsilə cəlb edilməsi lazımdır. Bu bizə sağlam ailə və savadlı ana deməkdir. Bu savadlı ananın yetişdirdiyi övladların da bilik və bacarıqları kifayət qədər yaxşı olacaq.

Ona görə hesab edirəm ki, bizim ali təhsil müəssisələrində, orta ixtisas təhsil müəssisələrində müəyyən plan yerləri, xüsusən İnformasiya texnologiyaları, Kompyuter elmləri, Kompyuter mühəndisliyi kimi ixtisaslarında plan yerlərinin müəyyən bir qismini biz xanım abituriyentlərə ayırmalıyıq. Yəni, qızların təhsilinə xüsusi diqqət yetirmək lazımdır. Bu cəmiyyətin inkişafı üçün də vacibdir. Çünki bəzən biz görürük ki, məhz qadınların təhsilinin zəif olması, və yaxud da ümumiyyətlə olmaması gələcəkdə onların nikah münasibətlərinə öz mənfi təsirini göstərir, və yaxud da ki əmək münasibətlərinə cəlb edilәndə müəyyən qədər problemlər ortaya çıxardır.

Birmənalı şəkildə qızların təhsili ilə bağlı xüsusi proqram yaradılmalıdır. Həmçinin bölgələrdə təhsil müəssisələrinin sayı artırılmalıdır. Yəni, bu günləri biz görürük ki, misal üçün Bakıdan Lənkərana qədər olan ərazidə yalnız bir dənə təhsil müəssisəsi var. Bu ərazidə, məsələn, Neftçala və Salyan ərazisində ali təhsil müəssisəsi açılmalıdır və yaxud da ki Mərkəzi Aran ərazisində ali təhsil müəssisəsinə ehtiyac var. O ərazilərdə yalnız ən yaxın ali təhsil müəssisəsi Gəncədədir. Ali təhsil müəssisələrinin bölgələrdə sayını artırmalıyıq ki, valideynlər də övladlarının yaxın ərazidəki təhsil müəssisələrinə getməsində maraqlı olsunlar”.

*Ayşən Vəli*



# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Koronavirus tam olaraq bitib?

## *AYDINLIQ GƏTİRİLDİ*

**Əldə olunan məlumatlara görə, bu həftə heç kim vaksin vurdurmayıb. Bunu nəzərə alaraq artıq koronavirus tam olaraq bitib deyə bilərikmi? SİA mövzu ilə bağlı Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədlinin fikirlərini öyrənib.**



Onun sözlərinə görə, ümumi statistik məlumatları götürsək, xəstəxanalarda olan məlumat və Səhiyyə Nazirliyinin müvafiq təşkilatlarında olan qərarları analiz etdikdə belə qərara gəlirik ki, koronavirusun aktuallığı azalsa da bu yoxdur deyə bilmərik: ”Çünki heç yoluxan, həm də ağırlaşan insanlar müşahidə olunur. Statistik göstəricilərdə bu öz əksini tapır”.

Müşfiq Məmmədli sözlərinə belə davam edib: ”Buna görə də xüsusən havaların soyuması ilə əlaqədar olaraq deyə bilərik ki, koronavirus öz aktuallığını itirsə də, əvvəlki təhlükə səviyyəsində olmasa da hələ cəmiyyətimizdə yoluxan insanlar var. Bu virus infeksiyası olduğuna görə zaman-zaman müşahidə edəcəyik. Amma vaksin vurulması məsələsi koronavirusun aktuallağı barədə fikir yürütmək üçün əsas vermir”.

*Ayşən Vəli*

## 78 yaşlı məşhur aktrisa ailə həyatı qurdu...



Türkiyə mediası maraqlı xəbər yayımlayıb. Sən demə tanınmış türkiyəli aktrisa Zerrin Sümer 78 yaşında ailə həyatı qurub. Bu barədə qocaman aktrisa özü mətbuata açıqlayıb. O, 22 ildir münasibətdə olduğu şəxslə nikah masasına əyləşdiyini deyib.

Qeyd edək ki, Zerrin hazırda ”Ömər” serialında rol alır. O, daha əvvəl Günay Tuncellə ailəli olub və boşanıb, bir övladı var.

## Mərhum ingilis bəstəkarın əlyazması 100 min funt sterlinqə satılır...



Britaniyalı mərhum müğənni-bəstəkar Devid Bouinin ”Rock 'n' Roll Suicide” və ”Suffragette City” mahnılarının əlyazma sözləri 100 min funt sterlinqə (təxminən 210 330 manat) auksiona çıxarılacaq. Xarici mətbuatın yazdığına görə, mərhum sənətçi sözləri bir A4 vərəqinin hər iki tərəfinə yazıb.

Musiqi artefaktı ”Omega” hərrac evi tərəfindən satışa çıxarılacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**